# QURANDA MÜNAFİQ XÜSUSİYYƏTLƏRİ

**İnsanlardan elələri də var ki, inanmadıqları halda: "Allaha və axirət gününə inandıq", - deyirlər. (Bəqərə surəsi, 8)**

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


•...YARADILIŞ HƏQİQƏTİ

•...GİRİŞ

•...MÜNAFİQLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

•...MÜNAFİQLƏRİN MÖMİNLƏRİ ALDATMAQ ÜÇÜN CƏHDLƏRİ

•...MÜNAFİQLƏRİN AĞILSIZLIQLARI

•...MÜNAFİQLƏRİN FİTNƏKAR XÜSUSİYYƏTLƏRİ

•...MÜNAFİQLƏRİN MÖMİNLƏRƏ QARŞI FƏALİYYƏTLƏRİ

•...ALLAH MÜNAFİQLƏRİ ORTAYA ÇIXARIB ONLARA ƏZAB VERƏCƏK

•...ƏLVAVƏ HİSSƏ: DARVİNİZMİN SÜQUTU

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer verilməsinin səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməli başqa məqam da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət zamanı da oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları birlikdə oxumaları ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdim edilməsinin əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və

siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcudluğuna şahid olacaqdır.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə fakültəsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və xaosun, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# YARADILIŞ HƏQİQƏTİ

Yumurta, cücəni 20 günlük kürt dövrü boyunca qoruyacaq qədər möhkəm, lakin çölə çıxmağına imkan verəcək qədər də qırılmağa meyllidir. Cücələr yumurtanı qırmaq üçün xüsusi yumurta dişinə malikdir. Maraqlısı budur ki, bu xüsusi diş cücə yumurtadan çıxmamışdan öncə əmələ gəlir və yumurtanı qırdıqdan sonra yoxa çıxır. Hər canlı növünün ehtiyacına uyğun yaradılan yumurtaların bütün xüsusiyyətləri uca Allahın qüsursuz yaratmasının, ağlının və sonsuz elminin göstəricilərindən biridir.

Bakteriyalar canlılar aləmində sürətlə çoxalan qrup təşkil edirlər. Buna görə bu canlılar dünyanın ən sıx topluluğu qəbul edilirlər. Yeni formaya düşməyi bacarırlar. Eyni zamanda sayları dəqiqələr ərzində milyardlara çata bilir. Bakteriyalar çoxalmaq üçün müxtəlif mexanizmlərdən istifadə edirlər. Düşmən və ya ovlarını görmək üçün radara bənzər sistemlərdən istifadə həmin kompleks mexanizmlərdən bir neçəsidir.

Sürfə dövrünü baramanın içində keçirən bir tırtıl növü sürfədən çıxdıqdan sonra üstünü yarpaqla örtüb gizlənir. Əvvəlcə, yarpaq düşməsin deyə onu ipəyi ilə möhkəm bağlayır, daha sonra yarpağın sapını qoparır. Beləliklə, yarpaq qurumağa başlayır, sonra büzülüb yuvarlaq hala düşür. Tırtıl bunun sayəsində bir neçə saat sonra yarpaqdan ideal yuva əldə etmiş olur. Kainatdakı bütün canlılar kimi, bu tırtıl növü də uca Allahın ilhamı ilə hərəkət edir.

Ağacdələn şam ağaclarını deşməyə başlamadan öncə ilk növbədə onları araşdırıb 100 yaşını keçənləri seçir. Çünki 100 yaşı keçən ağacların bir növ xəstəlik nəticəsində sərt və qalın qabıqları yumşalır. Sizin, bəlkə də, ilk dəfə eşitdiyiniz və elmin son illərdə kəşf etdiyi bu məlumatı ağacdələnlər yüz illərdir bilir.

Ekvator bölgəsində minlərlə metr yüksəklikdə yetişən Yaz xaçgülü bitkisi soyuqdan donan gövdəsini qızdırmaq üçün antifriz sisteminə bənzər üsuldan istifadə edir. Bunu yarpaqlarındakı xüsusi maddə sayəsində bacarır. Uca

Rəbbimizin üstün yaratmasının təzahürü olan Yaz xaçgülü bitkisi bu xüsusiyyətinə görə əhəmiyyətli araşdırma mövzusu olmuşdur.

Quşların yer üzündə təxminən on min növü var və bu canlılar möcüzəvi xüsusiyyətlərə malikdir. Onların müxtəlif növlərinə yaşadığımız hər yerdə rast gəlirik və bu bizdə heyranlıq oyadır. Quşlar xarici görünüşləri, qüsursuz uçuş mexanizmləri, yuva qurmaq bacarıqları, fədakar davranışları və s. digər möhtəşəm xüsusiyyətləri ilə yaradılış həqiqətinə dəlil təşkil edirlər.

**Məgər göylərdə və yerdə olanların, həm də qanad açıb uçan quşların Allaha tariflər dediklərini görmürsənmi? Hər biri öz duasını və həmd-sənasını bilir. (Nur surəsi, 41)**

Göz qapağının kənarından çıxan kirpiklər gözə estetik gözəllik və ifadə verməklə yanaşı, onu tozlardan və yad maddələrdən qoruyur. Kirpiklər qopanda yerinə təzələri çıxır. Bu, Rəbbimiz olan Allahın yaratmasındakı gözəlliyin bənzərsiz nümunələrindəndir.

Qış yuxusuna gedən canlıların bədən temperaturu normadan aşağı (məsələn, 38°C-dən 10°C-yə kimi) düşür və ürək döyüntüləri azalır (4 saniyədə bir dəfə), beləliklə, dərin yuxuya gedirlər. Hətta bu yuxu zamanı bəzi heyvanların nəbzi tamamilə dayanmış kimi görünür. Heyvanların qış yuxusuna getməsi sonsuz şəfqət sahibi Allahın təqdiridir.

Təkamül nağılını dəstəkləyən heç bir fosil nümunəsinin tapılmaması, şübhəsiz ki, təkamülçülərin ən böyük kabuslarından biridir. 150 ildir ki, davam edən qazıntı işləri hər dəfə təkamülə zərbə vuran dəlillər ortaya qoyur. Bunlardan biri də yengəclərin dəyişmədən qaldığını göstərən aşağıdakı 50 milyon yaşındakı yengəc fosilidir.

Yan tərəfdə dövrümüzdə yaşayan yengəc

Era: Kaynozoy

Dövr: Eosen

Yaş: 50 milyon il

Yer: Monte Baldo, İtaliya

50 milyon illik yengəc fosili

Əgər darvinistlərin iddiaları doğru olsaydı, yüz milyonlarla ildir varlıqlarını davam etdirən dəniz ulduzları çoxdan başqa dəniz canlılarına, hətta quru canlısına çevrilməli idilər. Lakin belə bir şey heç vaxt olmamışdır. 430 milyon il əvvələ aid olan bu dəniz ulduzu fosili də bu həqiqəti təsdiqləyir və canlıları Allahın yaratdığını göstərir.

Era: Paleozoy zaman,

Dövr: Silur dövrü

Yaş: 430 milyon il

Yer: Avstraliya

Yan tərəfdə dövrümüzdə yaşayan bir dəniz ulduzu, aşağıda 430 milyon illik dəniz ulduzu fosili

Fosillər, pələnglərin başqa bir canlıdan törəmədiyini, həmişə pələng olaraq mövcud olduğunu sübut etmişdir. 80 milyon il əvvəl yaşamış pələnglərin dövrümüzdəkilərlə eyni olduğunu göstərən şəkildəki fosil bütün təkamülçü iddiaları susdurur. Bütün canlı növlərini üstün yaratma gücünə sahib uca Allah yaratmışdır.

Era: Mezozoy

Dövr: Təbaşir

Yaş. 80 milyon il

Yer: Çin

Dövrümüzdə yaşayan pələng

Yuxarıda: 80 milyon öncə də eyni quruluşa sahib olan pələng kəllə sümüyü

Əgər təkamül doğru olsa idi, keçmişdə müxtəlif canlı növlərinin xüsusiyyətlərinə sahib qəribə varlıqlar olardı. Lakin bütün canlılar şəkildə nümunəsi görünən 83 milyon illik antilop kimi ilk mövcud olduqları halları ilə dövrümüzə qədər gəlmişdir. Canlıların tarixi təkamül iddialarını alt-üst edir.

Solda antilop kəllə sümüyü fosili görünür.

Era: Mezozoy

Dövr: Təbaşir

Yaş: 83 milyon il

Yer: Çin

Yuxarıda: 83 milyon il eyni xüsusiyyəti daşıyan dövrümüzdəki antilop

Menidae fəsiləsinə daxil olan mene balıqlarının tarix boyu eyni qaldığını göstərən bir çox fosil vardır. Buna baxmayaraq, bu balıqların təkamülçülərin iddia etdiyi kimi, digər canlılardan törədiyini göstərən heç bir fosil yoxdur.

Aşağıda 54-37 milyon yaşında olan Mene balığı (Mene maculata) fosili, solda isə həmin fosillə tamamilə eyni xüsusiyyətdə olan dövrümüzdəki canlı nümunəsi görünür.

Era: Kaynozoy

Dövr: Eosen

Yaş: 54-37 milyon il

Yer: Monte Bolca, İtaliya

Şirin su xərçəngi kimi də bilinən krevetlər başqa canlılar kimi yüz milyon ildən çoxdur ki, dəyişməyib. Şəkildə görünən krevet fosili 155-144 milyon yaşındadır və dövrümüzdəkilərdən heç bir fərqi yoxdur. Bu vəziyyət yenə təkamülçülərin canlıların mənşəyi mövzusundakı iddialarını puç edir və yaradılışın açıq həqiqət olduğunu göstərir.

Solda krevetlərin həmişə krevet olaraq mövcud olduğunu sübut edən dövrümüzdəki nümunəsi

Krevet fosili (aşağıda)

Era: Mezozoy

Dövr: Yura

Yaş: 155-144 milyon il

Yer: Almaniya

Şəkildəki 150 milyon illik at nalı xərçəngi fosili həmin canlıların 100 milyon ildən çox zamanda dəyişmədiyinin sübutudur. Bu sübutun göstərdiyi tək həqiqət məlumdur: Tarix boyu təkamül olmamış, bütün canlıları uca Allah yaratmışdır.

At nalı xərçəngi fosili

Era: Mezozoy

Dövr: Yura

Yaş: 150 milyon il

Yer: Almaniya

Aşağıda dövrümüzdə yaşayan at nalı xərçəngi görünür.

Əldə edilən gitara skatı fosilləri hansı dövrə aid olmasından asılı olmayaraq, hamısı bir-biri ilə eynidir. Hər bir xüsusiyyəti ilə dövrümüzdəki gitara skatlarına tam bənzəyən bu fosillər canlıların mərhələli şəkildə kiçik dəyişiklərlə inkişaf etdiyi iddiasını əsassız edir. Allah bütün canlıları nümunəsiz olaraq sahib olduqları mükəmməl xüsusiyyətlərlə yoxdan yaratmışdır.

Yuxarıda gitara skatı fosili görünür.

Era: Mezozoy

Dövr: Təbaşir

Şar balığı milyon illərdir ki, heç bir dəyişikliyə məruz qalmadan varlığını davam etdirir. 95 milyon il öncə yaşayan şar balıqları ilə bu gün yaşayanların tamamilə eyni olması təkamülçülərin qətiyyən açıqlaya bilmədiyi vəziyyətdir. Fosillər canlıları Allahın yaratdığını göstərir.

Dövrümüzdəki şar balığı (solda)

Şar balığı fosili

Era: Mezozoy

Dövr: Təbaşir

Yaş: 95 milyon il

Yer: Livan

Qovaq ağaclarının başqa bitkidən törəmədiyini göstərən bu fosil yaradılış dəlilidir. Dövrümüzdəki qovaqlarla tamamilə eyni olan 50 milyon il öncəki qovaq ağacı təkamülün xəyal məhsulundan ibarət olduğunu görstərir.

Dövrümüzdəki qovaq yarpaqları

Qovaq yarpağı fosili

Era: Kaynozoy

Dövr: Eosen

Yaş: 54-37 milyon il

Yer: ABŞ

Bitkilərin təkamülü iddiasına dəlil kimi göstəriləcək heç bir fosil yoxdur. Heç bundan sonra da tapmaq mümkün deyil. Şəkildəki 50 milyon illik sumax fosilinin göstərdiyi kimi, bitkilər təkamül keçirməmiş, yaradılmışlar.

Yan tərəfdə sumax yarpağı görünür.

Era: Kaynozoy

Dövr: Eosen

Yaş: 50 milyon il

Yer: ABŞ

50 milyon illik sumax yarpağı fosili

Təxminən 150 ildir davam edən fosil tədqiqatları çiçəkli bitkilərin ortaq əcdadı kimi qələmə veriləcək bircə fosil belə ortaya qoya bilməmişdir. 50 milyon illik südləyən yarpağının da göstərdiyi kimi, aradan on milyon illər keçsə də, bitkilər heç dəyişməmişdir, yəni təkamül keçirməmişdir.

Era: Kaynozoy

Dövr: Eosen

Yaş: 50 milyon il

Yer: ABŞ

50 milyon illik südləyən yarpağı fosili

Yan tərəfdə dövrümüzdəki südləyən yarpaqları görünür.

# GİRİŞ

Müsəlmanın ən əhəmiyyətli xüsusiyyətlərindən biri, Quranı özünə rəhbər seçməsidir. Quranı rəhbər tutan insan özünü, dünyanı və yaşadığı cəmiyyəti Quran ayələri işığında dəyərləndirir. Çünki əmindir ki, onu və bütün dünyanı yaradan uca Allah, Qurani-Kərimi nazil etmişdir. Hər şeyi yaradan uca Allah hər şeyin ən doğrusunu da bilir. "Mülk" surəsinin **"Məgər yaradan bilməzmi?! O, incəliyinə qədər biləndir, xəbərdardır!"** şəklindəki 14-cü ayəsi bunu təsdiq edir. Ayədə bildirilən Allahın "Xəbir" ismi "hər şeyin əslindən, gizli tərəfindən xəbərdar olan" mənasını verir.

Allah hər şeyin gizli tərəfini bilir və bu sonsuz bilginin bir qismini Quranda möminlərə açıqlayıb. Bir Quran ayəsində bu mövzu haqqında belə xəbər verilir:

**Həmçinin öz içərinizdən ayələrimizi sizə oxuyan, sizi təmizləyən, kitabı və hikməti sizə öyrədən, habelə bilmədiklərinizi də sizə öyrədən bir elçi göndərdik. (Bəqərə surəsi, 151)**

Buna görə də müsəlman Quran ayələrini diqqətlə oxumalıdır. Allahın ayədə bildirdiyi kimi, **"Onun haqq olduğu onlara bəlli olsun deyə Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə, həm də onların öz daxilində mütləq göstərəcəyik" (Fussilət surəsi, 53)** xarici aləmdə də Allahın dəlillərini görəcəyini unutmamalıdır. Quranda xarici aləmlə bağlı məlumatlar var. Bunların ən əhəmiyyətlilərindən biri müsəlmanın bir çox insan və cəmiyyətlə üzləşəcəyini xəbər verən ayələrdir.

Allahın dinini və gözəl əxlaqı yaşamaqla, həmçinin bunu digər insanlara anlatmaqla vəzifəli olan mömin müxtəlif insanlarla və fərqli reaksiyalarla qarşılaşacaq. Bir çoxu onu dinləyəcək, bir çoxu da ona qarşı çıxacaq. Quranda bütün bunlar haqqında məlumat var və müsəlmanlar müxtəlif vəziyyətlərdə necə davranacaqları haqqında xəbərdar edilirlər.

Bu kitabda, Quranda tez-tez izah edilən münafiqlərdən bəhs edəcəyik.

Münafiqlər Quran ayələrində bildirildiyi kimi, ikiüzlü və saxtakar insanlardır. Əslində iman gətirmədikləri halda, mömin kimi davranırlar. Ən

önəmlisi isə saxtakarlığı təkbaşına etmirlər, möminlərin arasına girib sanki onlardanmış kimi davranmağa çalışırlar. Çünki möminlərlə birlikdə olub bəzi dünyəvi mənfəətlər əldə etmək istəyirlər. Elə zənn edirlər ki, möminlərin yanında imanlı kimi görünüb onları aldadacaq və onların malik olduğu bəzi imkanlardan faydalanacaqlar.

Mənfəət əldə edə bilməyəcəklərini anladıqda, yaxud möminlərə imtahan olaraq müsibət üz verdikdə tez onlardan ayrılıb həqiqi üzlərini göstərirlər. Ayrılan zaman möminlərə zərər verib onların birliyini pozmağa çalışırlar. Möminlərdən uzaqlaşdıqdan sonra inkarçılarla əlbir olub fitnəkarlığa davam edirlər. Əlbəttə, bundan bir nəticə əldə edə bilməzlər. Bu çirkin əməllərinə görə onlara Quranda "münafiq" (nifaq salan, fitnə çıxaran) adı verilmişdir.

Quranda münafiqlər haqqında bir çox ayədə xəbər verilir və möminlərin onlara qarşı diqqətli olmaları xatırladılır. Buna görə də Qurana tabe olan mömin, münafiqlərə qarşı diqqətli olub onun xüsusiyyətlərini bilməlidir. Çünki Quran əxlaqını yaşayan hər mömin camaatı münafiqlərlə mütləq qarşılaşır. Münafiqlərin yalnız Peyğəmbərimizin dövründə Məkkə və Mədinədə yaşamış camaat olduğunu düşünmək çox yanlışdır. Çünki münafiqlər hər dövrdə olduğu kimi, indi də fəaliyyət göstərir və təqlidi müsəlman xüsusiyyətləri ilə özlərini kamuflyaj etməyə çalışırlar.

Onlar bəzən özləri kimi səmimiyyətsiz insanlarla gizlicə əlbir olub haqqı gizlədirlər. Bəzən də fitnə çıxarmaqla möminlərə maddi-mənəvi zərər verməyə çalışırlar. Quran hər dövrə və hər cəmiyyətə xitab edir. Beləliklə, hər şeyi Quran ölçüsü ilə dəyərləndirən mömin Allahın **"O, Öz ayələrini sizə göstərəcək, siz də onları tanıyacaqsınız" (Nəml surəsi, 93)** hökmünə əsasən, münafiqlərlə əlaqədar ayələrin reallaşacağını görəcək. Həmçinin hazırda da belə şəxslərin möcüzəvi şəkildə Quranda təsvir edildiyi kimi davrandıqlarının şahidi olacaq.

Bu baxımdan münafiqlərin pis niyyətlərini və əsl simalarını üzə çıxarmaq, məkrli planlarına qarşı ideoloji mübarizə aparmaq Allah qatında önəmli ibadətdir.

Münafiq xüsusiyyətlərini tanımaq başqa yöndən də əhəmiyyətlidir: Möminlər bu xüsusiyyətlərə baxıb özünü daha da kamilləşdirməlidir. Münafiq və inkarçılara xas xüsusiyyətləri bilmək möminin həmin xüsusiyyətlərdən çəkinməsinə və daha diqqətli olmasına kömək edir. Məsələn, təkəbbürlü olmaq münafiq və inkarçı xüsusiyyətidir. Lakin mömin qəflətə düşərək təkəbbürlənə bilər. Sonra bunun yanlış olduğunu xatırlayıb tez bu xətadan üz döndərər.

Buna görə də, möminlər münafiqlər haqqındakı ayələri oxuyarkən özünü gözdən keçirməli, həmin ayələrdən ibrət almalıdır.

Kitabda Quran ayələri işığında münafiq xüsusiyyətlərindən və möminlərin çəkinməli olduqları davranışlardan bəhs ediləcək.

## Münafiqlər haqqında ayələr bütün müsəlmanlara xitab edir

**ADNAN OKTAR**: Münafiqlər barədə ayələr o qədər çoxdur ki. Müsəlman əgər "**bu mənə xitab etmir**" desə, bu haram olar. Hər bir ayə müsəlmana xitab edir. Oradakı ayələr bütün müsəlmanlara xitab edir və münafiq onsuzda inanmır ki, bu ayələrdən təsirlənsin. Mömin bu ayələrdən təsirlənər. Buna görə də, münafiqlər barədə həddən artıq çox olan bu ayələri müsəlmanlar oxuyarkən, bunları özünü nəzərə alaraq oxuyar. Başqa cür olmaz. "Filan camaata, filan kütləyə deyir, bu mənə aid deyil" desə, haram olar. "Mənə xitab edir" deyəcək və ayələri özünü nəzərə alaraq oxuyacaq. Bənzər bir xarakter özündə vardırsa, bunları təmizləyəcək. (Adnan Oktarın "A9 TV" müsahibəsi, 19 may 2016)

## Münafiqlərin əxlaqsızlığı ilə möminlərin gözəl əxlaqını müqayisə etdikdə, möminləri daha çox sevirik

**ADNAN OKTAR:** Münafiqlər hər dövrdə yaşayırlar. Onlar mikrob kimidir, cəmiyyətin mikrobu və alçaq məxluqdurlar. Rəsulullahın dövründə də, hz. Musanın dövründə də, lap əvvəllər də olublar. Ancaq bu, müsəlmanların dəyərini və savabını artırır. Bunu kömürlə almazın müqayisəsinə bənzədə bilərik. O alçaq məxluqların əxlaqsızlığını, o mübarək insanların da üstün əxlaqı, fədakarlığı, igidliyi və səbrini müqayisə etsək, möminləri daha çox

sevərik. Bu yöndən də münafiqlərin varlığında hikmət və xeyir var. (Adnan Oktarın "Kral Karadeniz" TV müsahibəsi, 7 aprel 2009)

# MÜNAFİQLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Münafiqlər xarici görünüş baxımından səmimi müsəlmanlardan fərqlənməyə bilərlər, lakin onların daxili aləmi tamamilə fərqli olur. Münafiqlər kənardan dindar kimi görünə, danışıq və hərəkətləri ilə müsəlmana bənzəyə bilərlər. Ancaq onların din anlayışı Qurana deyil, öz yanlış məntiqlərinə əsaslanır. Dinə münasibətlərinin əsasında həmişə mənfəət qazanmaq durur.

Münafiqlər əsil niyyətlərini gizlətməklə müsəlmanların sahib olduqları nemətlərdən sui-istifadə etmək istəyirlər. Allahın müsəlmanlara rəhmət olaraq verdiyi bütün gözəlliklərdən istifadə etməyə çalışırlar. Bununla da elə zənn edirlər ki, mənfəət güddüklərini heç kim başa düşmür və müsəlmanları aldadırlar.

Onlar, əslində, çox yanılırlar. Çünki möminlər ən kiçik səmimiyyətsizliyi belə hiss edirlər. Hər şeydən əhəmiyyətli isə gizlinin gizlisini bilən, hər şeydən xəbəri olan Allah münafiqlərin əsl üzünü bilir. Beləliklə, özlərini göstərmək üçün daşıdıqları mömin əlamətlərinin Allah qatında heç bir dəyəri yoxdur. Allah onların etdiyi ibadətlərin puç olduğunu **"...etdikləri əməllər isə puçdur!" (Əraf surəsi, 139)** ayəsi ilə bildirir.

Allah münafiqlərin səmimiyyətsizliyindən, gizli sandıqları yönlərindən də xəbərdardır. Beləliklə, münafiqlər saxtakarlıqlarına görə ayədə xəbər verildiyi kimi, yalnız özlərini aldadır və bunu anlamırlar (Bəqərə surəsi, 9).

Allah Quranda münafiqləri çox təfərrüatlı şəkildə təsvir etmişdir və möminlərin bütün bu ayələr üzərində düşünmələri çox vacibdir. Münafiqlərin əsas xüsusiyyətlərindən bəziləri bunlardır:

## Münafiqlər mömin camaatının içindən çıxırlar

Münafiqlər mömin camaatından çıxırlar. Möminlərin olmadığı mühitdə ancaq Quranda müşrik və ya inkarçı kimi adlandırılan şəxslərdən bəhs edilə bilər. Lakin hər hansı bir camaatın içində möminlər varsa, bəzi insanlar onların

içinə sızıb malik olduqları imkanlardan yararlanmaq üçün iman gətirmiş kimi görünə bilərlər. Onlar elə zənn edirlər ki, iman gətirmiş kimi görünsələr, möminlərdən mənfəət əldə edəcəklər.

Quran ayələrində görürük ki, mömin camaatının içində münafiqlərin olması Allahın qanunudur. Münafiqlərin möminlərin arasında yaşamalarının əsas səbəbləri möminləri daxildən parçalamaq, Allahın elçisinə və möminlərə qarşı qruplaşaraq inkarçılara dəstək verməkdir. Bütün bunlardan ötrü möminlərin arasında mümkün qədər uzun müddət özlərini gizlətməyə çalışırlar. Bir ayədə Allah münafiqlərin möminlərin arasında gizlənən bir qrup olduğunu belə xəbər verir:

**Şübhəsiz ki, yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir.**
**(Nur surəsi, 11)**

## Münafiqlər müsəlmanların həmişə şövqlü olmasına səbəb olur

**ADNAN OKTAR:** Müsəlman olmadığı halda, müsəlmanların yanına gəlib onların pulundan, imkanlarından istifadə etmək üçün bir müddət müsəlmanların yanında qalıb onların sirlərini öyrənən, yaşadıqları yer və həyatı haqqında məlumat toplayıb küfrə ötürən alçaq və şərəfsizlərə "münafiq" deyilir. Bu, Peyğəmbərimizin dövründə də var idi. Məsələn, Peyğəmbərimiz möminlərlə söhbət edir, münafiq bir səhabənin arxasında gizlənib çıxır. Onun axmaqlığına baxın. Ayədə gizlənərək çıxanlardan bəhs edilir. Guya özlərini sezdirmirlər.

Onların İQ-si aşağı səviyyədə olur. Elə zənn edirlər ki, onları heç kim görmür. Məsələn, Dirar məscidi tikirlər, ayrı bir məscid. Deyirlər ki, Peyğəmbərin məscidinə nə gərək var ki, məgər doğru yol Quran deyilmi? Bizim məscidimizdə də Quran var. Gəlin, burada namaz qılaq. Yəni hz. Məhəmmədin yanında durmağa nə ehtiyac var, mütləq onun yanında olmalıyıq? Əgər gəlmək istəyirsə, o da gəlsin", -deyirlər. Bəs yaxşı, siz niyə gəlmirsiniz Rəsulullahın yanına?

Münafiqin, izahı mümkün olmayan şərəfsiz ruhu var, alçaq ruhu var. Bu, şeytanda da var. Açıqlana bilinmir, yəni ağla sığmır. Hz. Mehdinin dövründə də üç dəfə münafiqlərin çıxmasından bəhs edilir. Hz. Mehdi camaatı ona görə həmişə 313 nəfər qalır. İnsanlar gəlib gedirlər. Bir çay düşünün. Çay bir yandan gözəl meyvə gətirir, digər yandan çürük meyvələri götürüb aparır. Yaxud da gümüşdəki kimi üzərindəki ləkələr gedir, saf gümüş qalır. Münafiq möminin ayıq-sayıq olmasına səbəb olur. Benzin kimidir, yəni şövqünü artırır möminin. Münafiqlər olmasa, müsəlmanlar ətalətə düşərlər. Münafiqlər şeytanla əlbir olurlar, çox hiyləgərdirlər. Peyğəmbərin dövründə ağlasığmaz əməllər törətdilər.

Təsəvvür edin, müsəlmanlar sıxışdırılırlar iki tərəfdən. Ayədə deyilir ki, sizin fəlakət xəbərlərinizi gözləyirlər, başqaları ilə əlbir olublar. Müsəlmanlara hücum edilməsini, onların tutulub həbsə atılmasını, yaxud şəhid edilməsini gözləyirlər. Ayədə deyilir ki, baxın, sizin xəbərlərinizi kənardan alırlar. Eyni şəkildə Hz. Mehdini də kənardan izləyəcəklər. Bu, Quran ayəsidir. Ayədə deyilir ki, sizə bədbəxtlik gəlməsini gözləyirlər.

Allah buyurur ki, o bədbəxtlik sizə (münafiqlərə) gəlsin. Allah bunu bildirirsə, bu, mütləq baş verir. Allah onları yandırıb-yaxır bu dəfə. Münafiqləri Allah içlərindən yıxır, mənəvi yöndən çökdürür. Allah onlara xəstəlik, narahatlıq verir. Hamısında əsəb və gərginlik olur. Bu, dünyada çəkdikləri iztirabdır. Axirətdə də cəhənnəmin ən alt təbəqəsinə düşəcəklər. (Adnan Oktarın "Gaziantep Olay", "Samsun AKS" və "TV Kayseri" müsahibəsi; 6 yanvar 2010-cu il)

## Münafiqlər iman etmədikləri halda, iman etmiş kimi görünürlər

Əvvəldə də vurğuladığımız kimi, ikiüzlü insanların əsas xüsusiyyətlərindən biri, iman gətirmədikləri halda, iman gətirmiş kimi görünməsidir. Bunun başlıca səbəbi isə, Allaha qəlbən iman etmir, bunu nümayiş üçün edirlər. Allah onların vəziyyətini bir ayədə belə xəbər verir:

**Binasını Allah qorxusu və rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz.**

**(Tövbə surəsi, 109)**

Münafiqlər möminlərdən mənfəət umduqlarına görə mömin təqlidi etmək üçün çox çalışırlar. Elə zənn edirlər ki, müsəlmanlara qarşı ikiüzlü davranıb onları aldadacaqlar. Quranda **"Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər. Əgər mömindirlərsə, (bilsinlər ki,) Allahı və Onun Elçisini razı salmaları daha yaxşıdır" (Tövbə surəsi, 62)** ayəsində münafiqlərin bu çirkin cəhdlərinə diqqət çəkilmişdir.

Münafiqlər hamını iman gətirdiklərinə inandırmağa çalışırlar. Ancaq düşünmürlər ki, yalnız qaldıqda və ya özləri kimi münafiq xüsusiyyətdəki şəxslərin yanına gəldikdə Allah onların bütün əməllərini anbaan izləyir. Müsəlmanlarla birlikdə olanda namaz qılır, onlar kimi davranır, uzaqlaşıb gedəndə isə ibadətləri tərk edib inkarçılara xas üslubla danışmağa və davranmağa başlayırlar. Təqlid qabiliyyətləri olsa da, Allah Quranda onların mütləq ortaya çıxacağını xəbər vermişdir. Quranda Allah bunu belə xəbər verir:

**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və axirət gününə inanırıq", -deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və (bunu) anlamırlar. Onların qəlbində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də üzücü bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 8-10)**

Başqa bir ayədə Allah münafiqlərdən belə bəhs edir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki (Allah) onları aldadır. (Nisa surəsi, 142)**

## Münafiqlərin xarici görkəmi aldadıcı olur

İlk baxışdan münafiqlərin anormallığı başa düşülməyə, hətta müsəlmanlardan heç fərqlənməyə bilər. Allah bir ayədə onların cüssəli bədən quruluşuna sahib olduqlarını və gözəl danışdıqlarını bildirmişdir:

**Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki onlar (divara) söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də döndərilirlər!**

**(Münafiqun surəsi, 4)**

Münafiqlər xarici görünüşləri ilə də möminləri təqlid etməyə çalışırlar. Beləcə, kənardan baxdıqda münafiqləri müsəlmanlardan ayırmaq mümkün olmaya bilər. Lakin mənəvi çirkinlik onların bütün həyatında əks olunur. Allah **"Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar" (Tövbə surəsi, 95)** ayəsi ilə onların bu vəziyyətini xəbər vermişdir. Allah başqa bir ayədə isə onlar haqqında **"onların murdarlığı üstünə bir murdarlıq da artırır" (Tövbə surəsi, 95)** deyə buyurur. Müntəzəm olaraq hiyləgərlik və xainlik kimi çirkin əxlaq ilə məşğul olduqlarına görə üzlərində iman nuru yoxdur. Quranda bu barədə **"Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür" (Yunis surəsi, 27)** nümunəsi verilir. Başqa ayədə isə belə buyurulur:

**Onlar harada olsalar da, Allahın və (mömin) insanların (himayəsində olanlar) istisna olmaqla onlara zəlillik qismət olar.**
**(Ali İmran surəsi, 112)**

Möminlər isə hər zaman Allahın rizasını düşünüb xeyir və yaxşılıq etdikləri üçün onların üzü çox nurludur, bir ayədə deyildiyi kimi, **"onların əlamətləri üzlərindəki səcdə izidir"** (Fəth surəsi, 29). Dolayısilə münafiqlərin üzlərindəki ifadə və mənəvi çirkinlik möminlərin nuru ilə müqayisədə daha da qabarıq şəkildə üzə çıxır.

# Münafiqlər baxış və danışıq pozuqluğuna görə tanınarlar

**ADNAN OKTAR:** Əlbəttə, münafiq kütbeyin olur, özünü ağıllı zənn edir. Başqalarını bəsit yollarla aldatmağa çalışır, həm də çox məntiqsiz və əxlaqsız üslubu var. Quranın məntiqinə uyğun olmayan riyakar və hiyləgər üsluba əl atır. Baxışlarında və danışıqlarında anormallıq olur. Allah buyurur ki, **Allah diləyərsə, onların baxışlarından anlayarsınız. Bundan başqa: "Danışıq tərzlərindən anlayarsan**" (Məhəmməd surəsi, 30), - deyilir ayədə. Quranda onların anormal danışıqlarından çoxlu nümunə verilib. (Adnan Oktarın "Tempo TV" müsahibəsindən, 10 fevral 2009-cu il)

**ADNAN OKTAR**: Münafiqlərin sözləri adətən çirkin və pis olar. Buna görə də ədəbsizdirlər. Danışıq ədəbini münafiqlər bilməzlər. Məsələn, Allah "Hucurat" surəsinin 2-ci ayəsində "**Səsini Peyğəmbərin səsindən yuxarı qaldırma**" buyurur. Peyğəmbər (s.ə.v) danışanda münafiq birdən danışır. Küt olurlar münafiqlər, buradan başa düşmək olar. Ədəbsizliyindən, şüursuzluğundan, kobudluğundan dərhal aydın olur ki, o, xəstədir, anormaldır, yəni ikiüzlü ruhludur. Peyğəmbər (s.ə.v) danışır, onun sözünü necə kəsə bilərsən? O, qışqırır və onun sözünü kəsir.

Uca Allah Məhəmməd surəsinin 30-cu ayəsində -Şeytandan Allaha sığınıram- buyurur; "**Əgər istəsək, onları sənə mütləq göstərəcəyik**". Bu nə deməkdir? Onlar gizlidir, yəni açıq-aşkar bilinməz, əgər elə olsa müsəlman onsuz da onunla görüşməz, münafiq çünki şeytan kimidir. İnsan şeytanı içində saxlamaz. Bilmir müsəlman. "**Bununla siz onları üzlərindən tanıyacaqsınız**." Amma Allah deyir ki, onun üzündə münafiq əlaməti əmələ gəlib. "**Sən onları sözlərin deyiliş tərzindən tanıyırsan**."

O, cəfəngiyat danışır, ona görə də onun çirkin üslubu müsəlman üslubuna oxşamır. Şeytana bənzər üslubu vardır. Bunu üslubundakı anormallıqdan, çirkabdan anlamaq olar. Allah ayədə "**az qala səni gözləri ilə devirəcəklər**" deyir. İçində ağlasığmaz nifrət edir, amma bunu kənardan göstərmir, üslubu, danışığı ilə göstərmir. (22 yanvar 2016, "A9TV Adnan Oktar ilə söhbətlər" verilişindən)

## Münafiqlər Quranı anlamırlar

Möminlərin arasında yaşayan münafiqlər səmimiyyətsizliyini nə qədər gizlətməyə çalışsalar da, bir çox hərəkətlərində özlərini büruzə verirlər. Bu vəziyyətlərdən biri də Quran haqqındakı yanlış izahlarıdır. Həqiqi iman gətirmədiklərinə görə Allahın möminlərə verdiyi elmdən məhrum olurlar. Buna görə də, Quran oxuyarkən ayələrdəki işarələri, verilən öyüdləri başa düşmürlər. Hər dəfə ayələri möminlərin arasında ayrı-seçkilik salmaq üçün və nəfslərinə uyğun şəkildə açıqlayırlar. Onların bu əməllərindən Quranda belə bəhs edilir:

**Kitabı sənə nazil edən Odur. O kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər. (Ali İmran surəsi, 7)**

Bəzən də ayələrdən təsirlənməmələri, verdikləri reaksiyalardan bəlli olur. Münafiqlərin bu vəziyyətini ifadə edən ayələrdən bir neçəsi aşağıdakı kimidir:

**Bir surə nazil edildiyi zaman onlardan: "Bu, hansınızın imanını artırdı?"– deyənlər də var. İman gətirənlərə gəldikdə isə, (o surə) onların imanını artırır və onlar bir-birlərini müjdələyirlər. (Tövbə surəsi, 124)**

**Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" (–deyə) bir-birlərinə baxır, sonra da üz çevirib gedirlər. Anlamayan adamlar olduqlarına görə Allah onların qəlbini (imandan) məhrum etmişdir. (Tövbə surəsi, 127)**

Münafiqlərin yanlış məntiqini ifadə edən ayələrdəki bu məlumatlar onların Qurandakı hikmətləri anlamadıqlarını və öyüd-nəsihət almadıqlarını açıqca göstərir. Allaha və dinə şübhə etdiklərinə görə inkarçılar kimi davranırlar. Möminlərə Allahın ayələri oxunduğu zaman bu onların imanını artırır (Ənfal surəsi, 2), münafiqlərin isə qəlbindəki xəstəliyi ortaya çıxarır.

Münafiqlər bu anormallıqlarını şeytanın təsiri ilə möminlərə də aşılamaq istəyirlər. Bu məqsədlə ətrafındakıların qəlbinə vəsvəsə verib onları şübhəyə salmağa və möminləri bölməyə çalışırlar. Elə bu səbəbdən Allah onlara qarşı diqqətli olmağı **"Bil ki, onlar öz Rəbbi ilə qarşılaşacaqları barədə şəkk-şübhə içindədirlər" (Fussilət surəsi, 54)** ayəsi ilə xatırlatmışdır.

## Münafiqlər Allahı çox az yada salırlar

Möminlər Allahı çox yada salır, Ona dua edib yönəlir və Ondan bağışlanma diləyirlər. Bunu həm öz aralarında edir, həm də danışıq tərzi və hərəkətləri ilə ətrafdakılara da Allahı xatırladırlar. Allahı həmişə anmaq, Onun varlığının və bəxş etdiyi nemətləri dərk etməkdən qaynaqlanır. Bir ayədə Allahı yada salmağın əhəmiyyətindən belə bəhs olunur:

**...Allahı yada salmaq isə (ibadətlərin) ən əzəmətlisidir. (Ənkəbut surəsi, 45)**

Münafiqlərin ən əsas xüsusiyyətlərindən biri Allah ilə əlaqələrinin olmamasıdır. Qəlbən Allaha bağlanmır, Onu xatırlamır və Ondan bağışlanma diləmirlər. Müsəlmanların yanında "müsəlman kimi" görünmək üçün Allahı çox az zikr edirlər. Allah bu həqiqəti bir ayədə belə bildirir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki (Allah) onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər.**

**(Nisa surəsi, 142)**

Başqa ayələrdə isə münafiqlərin Allahı yad etmədikləri belə xəbər verilir:

**Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır.**

**(Mücadilə surəsi, 19)**

**Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar (insanları) pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər. Onlar Allahı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar.**

**(Tövbə surəsi, 67)**

Allahı yada saldıqda isə Onun böyüklüyünü, gücünü və elmini təqdir etmirlər. Bundan başqa, möminləri təqlid etdiklərinə görə danışıq üslublarında səmimiyyət hiss olunmur. Adi mövzularda rahat və axıcı danışdıqları halda, Allahdan bəhs edərkən qəlib cümlələrdən istifadə edirlər. Qəlbən Allahı yada salmaq istəmədiklərinə görə müsəlmanların yanında özlərini buna məcbur edir və bu da onların iman gətirənlərə qəzəblənməsinə səbəb olur. Quranda bu mövzuda belə xəbər verilir:

**Allah tək olaraq xatırlandığı zaman axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər. (Zümər surəsi, 45)**

Bununla yanaşı, Allahın yad edildiyi yerlərdən qəsdən uzaq durur, müxtəlif bəhanələrlə qaçmağa çalışırlar. Eyni şəkildə, münafiqlər Quran oxunan yerlərdən də kənar durmağa çalışırlar. Çünki Qurana qulaq asdıqda ölüm, axirət günü və cəhənnəm kimi həqiqətlərlə üz-üzə gələcək və bu da onların vicdanına toxunacaq. Quranda onların bu halından belə bəhs edilir:

**O kəslərə ki, gözlərinə Məni anmamaq üçün pərdə çəkmişdilər, özləri də eşidə bilmirdilər. (Kəhf surəsi, 101)**

Başqa ayədə isə Allah münafiqlərin üzündəki qaranlıq ifadədən belə bəhs edir:

**Kafirlərə açıq-aydın ayələrimiz oxunduqda sən onların üzündə nifrət görərsən. Onlar az qalırlar ki, ayələrimizi onlara oxuyanların üstünə cumsunlar. De: "Sizə bundan daha pisini xəbər verimmi? (Bu,) cəhənnəmdir! Allah onu kafirlərə vəd etmişdir. O nə pis qayıdış yeridir!" (Həcc surəsi, 72)**

## Münafiqlər təkəbbürlüdürlər

Təvazökarlıq, hər zaman xəta edəcəyini qəbul etmək və öyüd-nəsihətləri dinləmək, möminin əsas xüsusiyyətlərindəndir. Lakin münafiqlər həm təkəbbürlü olur, həm də özlərini çox bəyənirlər. Öyüd-nəsihət dinləmir, xəta etdiklərini qəbul etmirlər. Ağıllı olduqları və hər şeyin ən doğrusunu bildiklərini düşünürlər. Üstəlik Allaha yaxşı bəndə olduqlarını iddia edirlər. Peyğəmbərimizin dövründəki münafiqlərin Peyğəmbərimizin onlar üçün bağışlanma diləməsini qəbul etməmələri təkəbbürlü olduqlarının açıq dəlilidir:

**Onlara: "Gəlin Allahın Elçisi sizin üçün bağışlanma diləsin!"– deyildiyi zaman başlarını yelləyir və sən onların özlərini dartaraq üz döndərdiklərini görürsən. (Münafiqun surəsi, 5)**

Bundan başqa, müsəlmanlar onları səmimi mömin olmağa dəvət edib Allahın ayələrini xatırlatdıqları zaman da onlar lovğalanırlar. Qüsursuz olduqlarına inanıb ağılsızlıq edir, insani xətaları belə özlərinə yaraşdırmırlar. Allah onların lovğalığından belə bəhs edir:

**Ona: "Allahdan qorx!"– deyildikdə lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

**Çünki onlara: "Allahdan başqa (ibadətə layiq olan) məbud yoxdur!"– deyildikdə təkəbbür göstərir. (Saffat surəsi, 35)**

Özlərini bütün xəta və nöqsanlardan uzaq gördükləri üçün etdikləri pis əməl və əxlaqsızlıqların axirətdəki qarşılığından xəbərsizdirlər. Təkəbbürlülük münafiqləri düşdükləri vəziyyətdən xilas olmağa imkan vermir. Möminlər müntəzəm olaraq xətalarını düzəldib kamilləşdikləri halda, münafiqlər məğrur həyatına daha da bağlanırlar. Xatırlatma və tövsiyələrdən heç vaxt faydalanmırlar. Allah bu vəziyyəti belə xəbər verir:

**Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə. (Ələq surəsi, 6-7)**

Eyni zamanda Quran oxuyarkən ayələri başqalarından bəhs edirmiş kimi şərh edir və ibrətamiz hekayələrin hikmətini anlamırlar. Quran oxuduqları halda ölümü, axirəti və cəhənnəmi özlərindən uzaq görürlər. Yaxşı niyyətli olduqlarını düşündüklərinə görə cəzaya layiq olmadıqlarını zənn edirlər.

Münafiqlər təkəbbürlərindən möminləri özlərindən aşağı görürlər. Malik olduqları hər hansı xüsusiyyətlərinə, məsələn, zənginlik, şöhrət, mövqelərinə görə təkəbbürlənir və bunlara sahib olmayan mömini özlərindən aşağı görürlər. Halbuki üstünlük yalnız təqva ilədir. Möminlər bu cür dünyəvi üstünlüklərə əhəmiyyət vermir, insanlara puluna, şöhrətinə görə deyil, imanlarına görə dəyər verirlər. Buna görə də, bu cür xüsusiyyətlərə görə təkəbbürlülük göstərən şəxslər möminlərin arasında dərhal nəzərə çarpır və ifşa olarlar.

## Münafiqlər yalançıdırlar

Münafiqlərin başqa bir xüsusiyyəti də çox yalan danışmalarıdır. Allahdan qorxmadıqları üçün çətin vəziyyətdə tez yalana əl atır və elə düşünürlər ki, bu minvalla möminləri aldadacaqlar. Bununla da məsuliyyətdən boyun qaçırmağa çalışırlar. Quranda Peyğəmbərimizin (s.ə.v) dövründə düşməndən müdafiə olunmaq üçün çağırılan münafiqlərin yalan danışıb qaçmağa çalışdıqlarına diqqət çəkilmişdir:

**İki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud müdafiədə durun!"– deyildi. Onlar: "Döyüş olacağını bilsəydik, sizin ardınızca gedərdik", – dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlbində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir. (Ali İmran surəsi, 166-167)**

Göründüyü kimi, münafiqlər çətin anlarında möminləri tərk edib öz mənfəətlərinin ardınca qaçırlar. Lakin bunu da ikiüzlülüklə, yəni özlərini haqlı çıxarmaq üçün edirlər. Əlbəttə, bunu: "**Bizə zərər gəlməsindən qorxuruq**", – deyərək etməzlər. Müxtəlif bəhanələr irəli sürüb haqlı olduqlarını sübut etməyə çalışarlar. Allah Quranda onların bu ağılsız hərəkətlərini belə bildirir:

**Geri qalan bədəvilər sənə: "Var-dövlətimiz və ailələrimiz bizi yayındırdı. Bizim üçün bağışlanma dilə!"– deyəcəklər. Onlar qəlbində olmayanları dilləri ilə deyirlər. De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, Onun qarşısını kim ala bilər?" Xeyr, Allah sizin nə etdiyinizdən xəbərdardır.**

**(Fəth surəsi, 11)**

**İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb", – deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər.**

**(Əhzab surəsi, 13)**

Göründüyü kimi, münafiqlərin irəli sürdüyü bəhanələr **"ailəmizi qorumaq məcburiyyətindəyik"**, **"savaşmağı bilmirik"** kimi sözlərdən ibarətdir. Lakin Allah onların barəsində bir ayədə **"qəlbində olmayanı ağızları ilə deyirlər" (Ali İmran surəsi, 167)** şəklində bəhs edir. Bundan başqa, Allaha and içərək yalan danışırlar. Allah Quranda münafiqlərin qeyri-səmimi sözlərini belə bildirir:

**...Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" (– deyə) Allaha and içəcəklər.... (Tövbə surəsi, 42)**

Münafiqlərin yalanlarından bəhs edən başqa bir ayə isə belədir:

**O, qəlbində olana da Allahı şahid göstərər. Halbuki o, düşmənlərin ən qəddarıdır. (Bəqərə surəsi, 204)**

## Münafiqlər yaxşılığa mane olur, pislik etmək üçün bir-birləri ilə yarışırlar

Möminlərin ən önəmli xüsusiyyətlərindən biri yaxşılığı əmr edib pislikdən çəkindirmələridir. Mömin digər insanları əlindən gəldiyi qədər yaxşılığa və Quran əxlaqına dəvət edir, pis əməllərə mümkün qədər mane olmağa çalışır. Münafiqlər isə bunun tam əksini edirlər: Dinin və möminlərin lehinə olan fəaliyyətlərə mane olmağa çalışırlar. Möminlərin xeyrinə olan işlərdən narahat olub bunun qarşısını almaq üçün bütün yollara əl atırlar. Müsəlmanlara zərər verəcək və onları çətinliyə salacaq hər şeyə dəstək verirlər. Ayədə belə buyurulur:

**Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar (insanları) pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər. Onlar Allahı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar.**

**(Tövbə surəsi, 67)**

## Münafiqlər İslamı (haşa) küfrlə dəyişdirmək istəyərlər

**ADNAN OKTAR**: Samiri çox qabiliyyətli, şeytanı qabiliyyəti olan biridir; danışığı da çox güclüdür. Münafiqlərin başı. Bir də onu təqlid edən tərəfdaşları var. Samiri onlara da münafiqlik sənətini öyrədir. Bu cür hərəkətlərdə həmişə münafiqlərin bir başı olar, bəzən qadın, bəzən kişi olar. Peyğəmbərimizdə (s.ə.v), "Mehdi zamanında qadın dəccallar və kişi dəccallar olacaq" deyir; ağla sığmaz şeytanı gücə sahib olarlar. Münafiqlər İslamı bir az vahid formada görərlər. Öz ağıllarına görə, onu küfrlə dəyişdirmək istəyərlər.

Məsələn, İslami bağlı əsər, Quranla bağlı əsər onu bezdirər. Küfrdən bir əsər olsa xoşuna gələr, onları oxumaq istəyər. Allahdan, Kitabdan, dindən bəhs edən kitabları oxumaq istəməz. Onları bəyəndiyini də demək istəməz, onu alçaldıcı görər. Amma küfrdən nə olduğu naməlum, nə izah etdiyi bilinməyən, başa düşülməsi çətin kitablar, yazılar olduğunda ədabazlıq olsun deyə onları bəyənər və oradan özünə bir parça çıxarar. Özünü ucaltdığını zənn edər. Allah küfrü tənqid edir, **"Möminləri qoyub kafirləri dost tutanlar, izzəti (güc və şərəfi) onların yanındamı axtarırlar?! Şübhəsiz ki, bütün izzət Allaha məxsusdur!"** (Nisa surəsi, 139), deyir. (Hörmətli Adnan Oktarın "A9 TV" müsahibəsindən, 23 yanvar 2016)

## Münafiqlər nankordurlar

Münafiqlər, başqa inkarçılar kimi Allaha qarşı nankorluq edirlər. Həm onları yaradan və hər cür nemətlər bəxş edən Allaha, həm də möminlərə qarşı nankordurlar. Çünki möminlərin yanında ikən, möminlər onlara hər cür yardım etmişlər. Möminlər onları imana dəvət etmiş, onların axirətini qurtarmağa çalışmışlar. Onlara verdikləri öyüd-nəsihətlər onların yaxşılığı üçün olmuşdur. Buna baxmayaraq, münafiqlər müsəlmanlarla ancaq düşmənçilik etmişlər. Əlbəttə, bu, nankorluq sayılır və Quranda münafiqlərin bu hərəkəti belə xəbər verilir:

**Allaha and içirlər ki, (nalayiq sözlər) deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar. Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir. Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr, Allah onları dünyada da, axirətdə də acılı-ağrılı bir əzaba düçar edər. Yer üzündə onların nə bir dostu, nə də bir köməkçisi vardır. (Tövbə surəsi, 74)**

**Onların bağışlanması üçün dua etsən də, etməsən də, (hətta) onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları hidayət yoluna yönəltməz. (Tövbə surəsi, 80)**

## Münafiqlər həm fiziki, həm də mənavi baxımdan iyrəncdirlər

Allah Quranda münafiqlərin iyrənc olduqlarını bildirir. Ümumiyyətlə, bütün müşriklərin murdar olduğunu vurğulayan “Tövbə” surəsinin 28-ci ayəsi ilə yanaşı, birbaşa münafiqlərə aid olan ayələrdə də fiziki və mənəvi pislikdən bəhs olunur. “Tövbə” surəsində Peyğəmbərimizdən və yanındakı möminlərdən ayrılan münafiqlərin qurduğu “Dirar məscidi” ilə möminlərin məscidi müqayisə edilərkən müsəlmanların təmizkar olduğuna diqqət çəkilir (Tövbə surəsi, 107-108). Münafiqlərdən bəhs edən başqa bir ayədə isə Allah belə buyurur:

**Qəlbində xəstəlik olanlara gəlincə, onların murdarlığı üstünə bir murdarlıq da artırır və onlar kafir qalaraq ölürlər.**

**(Tövbə surəsi, 125)**

Müsəlmanlar Allahdan içləri titrəyərək-qorxduqları üçün (Mülk surəsi, 12), insanların onları gördüyü yerlərdə də, görmədiyi yerlərdə də təmizliyə çox diqqət yetirərlər. Çünki Allahın hər an, hər yerdə onlara şahdamarından daha yaxın olduğunu və bütün əməllərini gördüyünü bilərlər. Möminlər öz şəxsi baxımlarına çox diqqətcildirlər. Amma Allahın bir təcəllisi olaraq hiss etdikləri dərin sevgi və hörmətin gərəyi olaraq, digər mömin qardaşlarının təmizliyinə, sağlamlığına, rahatına, hüzuruna, sevincinə daha çox diqqət göstərərlər. Çünki təmizlikdə göstərilən həssaslıq möminlər üçün vicdan əlamətidir və təqva göstəricisidir.

Xüsusilə də heç kimin görmədiyi yerdə bir adamın təmizlik mövzusundakı dəqiqliyi tamamilə o adamın Allah qorxusunun və imanının əks olunmasıdır. Halbuki münafiqlər həm özlərinin şəxsi baxımlarına, həm də digər möminlərin yaşadıqları yerlərin təmizliyinə əsla əhəmiyyət verməzlər.

Çünki həm o qaranlıq, “tənha” ruhları təmizlik marağında deyil, həm də müsəlmanlara daxilən hiss etdikləri nifrətin göstəricisi olaraq onlara təmizlik, gözəllik, rahatlıq, komfort təqdim etmək istəməzlər. Müsəlmanlara edəcəkləri və qarşılığında mənfəət əldə edə bilməyəcəkləri hər yaxşılığı öz aləmlərində “ağılsızlıq” olaraq görərlər. Möminlərin yanında ikən diqqət çəkməmək üçün

təmizliyə diqqət yetirmiş kimi davranarlar amma tək qaldıqlarında son dərəcə murdardırlar.

## Münafiqlər rahat deyil, həmişə narahatlıq içində yaşayırlar

Münafiqlərin ruh halı, daha əvvəl deyildiyi kimi daha hüznlü və sıxıntılıdır. Onların əzabı dünyada ikən başlayır. Öncəliklə, qorxu içində yaşayırlar. Möminlərin rahatlığını və sevincini əsla əldə edə bilməzlər.

Möminlərin yanında ikən əsas xüsusiyyətləri özlərini güvənsiz hiss etmələridir. Möminlər Allaha təslim olmaqla və onları sıxıntıdan Allahın xilas edəcəyini düşünməklə sevincli olurlar. Onlar Allaha güvənib təvəkkül edirlər. Münafiqlər isə Allaha təslim olmayıb özlərini hər zaman güvənsiz hiss edirlər.

Özlərini olduğu kimi göstərməyənlər və ətrafına qarşı ikiüzlü davranıb onları aldatmağa çalışanlar heç vaxt hüzurlu və rahat ola bilməzlər. Belə bir güvənsizlik içində ətrafda baş verənlərin öz əleyhinə olduğunu zənn edirlər. Hər an ikiüzlü olmaları ortaya çıxacağından narahat olurlar. Quranda münafiqlərin bu ruh halı **"Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar" (Münafiqun surəsi, 4)** ayəsi ilə təsvir olunur.

Digər ayədə münafiqlərin həmişə şübhə və xülyalar içində olduqları belə xəbər verilir:

**(Münafiqlər) onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" (Möminlər) deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, (möminlərə bəla üz verməsini) gözləyirdiniz, (haqqa) şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan (şeytan) Allah barəsində sizi yaman aldatdı. (Hədid surəsi, 14)**

## Münafiqlər ümidsizliyə asanlıqla düşürlər

Münafiqin ən əsas xüsusiyyətlərindən biri də, özünü nə qədər güclü göstərməyə çalışsa da, ən xırda hadisədə belə ümidsizliyə və bədbinliyə düşməsidir. Lakin zahirdə özünü elə göstərmir. Güclü imana sahib olduğunu deyib, heç vaxt doğru yoldan azmayacağına, bütün şərtlərdə Allahın rizasını axtaracağına və Ona təvəkkül edəcəyinə dair vədlər verir.

Bunlar isə ancaq dilində qalır və həqiqi həyatda çətinliklə qarşılaşdıqda tamamilə başqa reaksiyalar verir. Nəfsinə zidd olan ən kiçik bir şeydə belə zəiflik göstərir. Allahın dəstəyini, hər şeyə nəzarət etdiyini və bütün işləri xeyirlə yaratdığını düşünmür. Allah bir ayədə münafiqlərin bu vəziyyətini belə açıqlayır:

**İş qətiləşdiyi zaman Allaha sadiq olsaydılar, sözsüz ki, onlar üçün daha yaxşı olardı! (Muhəmməd surəsi, 21)**

Həqiqətən də, münafiqlər xarici görünüşə görə möminlərə bənzəsə də, dinə münasibət baxımından inkarçılarla bir çox ortaq xüsusiyyətləri vardır. Belə ki, çətinlik zamanı da möminlərdən fərqli reaksiyalar verirlər. Məsələn, xəstələndikdə asanlıqla Allaha üsyan edib ümidini üzür, təvəkkülsüzlük edirlər. Halbuki Allah kafirlərdən başqasının ümidini üzməyəcəyini bir ayədə belə bildirir:

**...Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər! (Yusif surəsi, 87)**

Bununla yanaşı, Allah rəhmət olaraq möminlərin imtahanını asanlaşdırmışdır. Ancaq bu asanlıq yalnız iman gətirənlər üçündür. Allaha səmimi şəkildə təslim olan müsəlmanlar Allahın yaratdığı görüntülərin davamlı dəyişməsini ibrət, həyəcan və təvəkküllə izləyirlər. Münafiqlər isə həmişə qorxu, səbirsizlik və narahatlıq içində olurlar. Onlar şeytanın təsirində olduqları üçün çətinliklərin taledən kənar, yəni Allahın rəhmətindən və planından kənar baş verdiyini zənn edirlər.

“Kaş bunu etməsəydim”, “işlər tərs getdi”, “belə etsəydim, bu olmazdı” kimi sözlərindən görünür ki, hadisələrin xeyirlə yaradıldığından qafildirlər. Halbuki Allah möminlər üçün qüsursuz tale yaratmışdır. Hər hadisə hikmət və xeyirlə yaradılmışdır, mömin həmin hikmətləri anlamağa çalışmalı və taledəki planın gözəlliyini görüb sevinməlidir.

## Münafiqlər möminlərə qarşı qorxu və narahatlıq yaşayarlar

Münafiqlərin digər mühüm xüsusiyyəti isə onların həmişə qorxu içində olmalarıdır. Quranda **“onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər” (Bəqərə surəsi, 38)** ayəsi ilə xəbər verilən möminlərin əksinə olaraq qorxu içində yaşamaq münafiqlərin başqa xüsusiyyətlərindən biridir. Çünki əsil üzlərinin və saxtakarlıqlarının ortaya çıxmasından qorxurlar. Möminlərin onların ikiüzlü olduğunu bilməyindən çəkinirlər. Quranda münafiqlərin bu vəziyyəti belə təsvir olunur:

**Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır. Əgər onlar bir sığınacaq və ya mağaralar, yaxud (gizlənməyə) bir deşik tapsaydılar, ləngimədən ora yönələrdilər. (Tövbə surəsi, 56-57)**

Bir başqa ayə münafiqlərin möminlərdən çox qorxduğunu belə vurğulayır:

**Onların qəlbində sizə qarşı hiss etdikləri qorxu Allaha qarşı olan qorxularından daha şiddətlidir. Çünki onlar dərk etməyən bir tayfadır. (Həşr surəsi, 13)**

## Münafiqlər, möminlərin qiymətini artırmaq üçün xüsusi yaradılmışdır

**ADNAN OKTAR**: Münafiqlər, möminlərin qiymətini artırmaq üçün xüsusi yaradılmış bir qrupdur. Münafiq olmazsa möminin dəyəri bir parça düşər. Münafiq, möminin dəyərini artıran məxluq tayfasıdır. Onlarla müqayisə edərək Allah insanların gözündə müsəlmanların qiymətli olduğunu göstərir.

Məsələn Mehdi (ə.s) camaatından da münafiqlər çıxacaq, sonra çox məşhur olacaq bu münafiqlər, bütün insanlıq biləcək, bütün dünyaya ibrət olacaqdır bütün münafiqlər. Yəni axirətdə də bütün insanlara ibrət olacaq. Peyğəmbərimiz (s.ə.v) zamanındakı münafiqlər də, Hz. Musa (ə.s) dövründəki münafiqlər də, bunlar məşhurdur.

Məsələn Samiri vardır; məşhur, tarixə keçmişdir. Peyğəmbərimiz (s.ə.v) zamanındakı münafiqlər tarixə keçmişdir. Mehdi (ə.s) dövründəki münafiqlər də tarixə keçəcəklər. Yəni hər kəs tərəfindən bilinəcək. Hər kəsin alçaltdığı, şərəfsiz, xaraktersiz gördüyü məxluqlar olaraq bilinəcəklər.

O dövrdə Mehdi (ə.s) tələbələrinin nə qədər çalışqan olduğu və münafiqlərin də onlara qarşı etdiyi fəaliyyətlər izah ediləcək. Onlara qarşı verdikləri mübarizə izah ediləcək, hər ikisi də tarixə keçəcək. Necə Peyğəmbərimizin (s.ə.v) zamanı tarixə keçdisə, Hz. İbrahimin (ə.s) dövrü tarixə keçdisə, bu da tarixə keçəcək, inşaAllah... Möminlərin fəlakət xəbərlərini kənardan gözləyirlər, diqqət yetirsəniz. Bu nədir? Müsəlmanlara ediləcək bir əməliyyat, hücum, təhqir, oyun. Bunu dəhşət içində kənardan izləyirlər amma kənarda olduqları üçün də özlərini təhlükəsizlikdə görürlər. Müsəlmanların o sinə-sinəyə elmi mübarizəsinə uzaqdan tamaşa edirlər.

Müsəlmanlar qalib olduğunda qibtə edirlər, yəni həsəd edirlər, kaş ki biz də onlarla olsaydıq deyə. Amma müsəlmanlara bir hücum olduqda çox xoşlarına gəlir; “Allah bizi qorudu” deyirlər, “çox yaxşı oldu” deyirlər. Yəni ürkmüş quduz it kimi bütün məsələni, müsəlman camaatından ayrı olmaqda görürlər. Amma ətrafındakıları aldatmaq üçün, ayrıldıqdan sonra namaza yenə

davam edirlər, yenə oruc tuturlar, bir yerdə bir-birlərini aldadırlar; yəni münafiq birliyinin xüsusiyyəti budur. “Biz onsuz da müsəlmanıq” deyirlər, “onlardan ayrıyıq amma müsəlmanıq” deyirlər, yəni küfrə qarışmırlar.

Küfr xarakterində olduqları halda, İslamdan nifrət etdikləri halda, müsəlmanlardan nifrət etdikləri halda yenə o münafiqliyin gərəyi olaraq namaza, oruca, ibadətlərinə davam edərək, yenə bir camaat halında, qrup halında yaşayırlar, ayrı olaraq. Və bütün vəzifələri də, müsəlmanlara qarşı mübarizə olur. Baxın, bu çox qəribədir. Yəni əsas məqsədi, şüuraltından bu heç cürə getmir. Məsələn Peyğəmbəri (s.ə.v) həmişə şəhid etməyə çalışmışdır münafiqlər. Çünki Peyğəmbərimiz (s.ə.v) yaşadığı müddətcə vicdan əzabı çəkirlər, narahatdırlar. (Adnan Oktarın “Kanal Avropa” TV müsahibəsi, 7 fevral 2010)

# MÜNAFİQLƏRİN MÖMİNLƏRİ ALDATMAQ CƏHDLƏRİ

Əvvəldə də vurğuladığımız kimi, özünü mömin kimi göstərməyə çalışmaq münafiqləri digər inkarçılardan ayırır. Müəyyən mənfəətlər naminə möminlərin yanında olmaq istəyir və belə bir mühitdə onlar kimi görünməyin daha "faydalı" olduğunu düşünürlər.

Münafiq hər vəziyyətdə özünü möminlərə sübut etmək üçün İslam əxlaqını yaşayırmış kimi görünə bilər. Nümayiş üçün ibadət edər, lakin bu ibadəti Allah qatında qəbul olmaz. Çünki bir əməl Allah rizası üçün edildikdə ibadət sayılır. Münafiqlər isə Allahın deyil, insanların razılığını axtarırlar. Münafiqlər namaz qılarkən, infaq edərkən, danışarkən, söz verərkən və s. ancaq özlərini sübut etməyə çalışırlar. Halbuki həqiqi müsəlmanların belə bir narahatlığı yoxdur. Çünki onlar Allah qatında heç bir şeyin gizli qalmadığını və hətta unutduqları şeyləri belə Allahın axirətdə ortaya çıxaracağını bilərək yalnız Onun rizası üçün yaşayırlar. Allah bir ayədə belə bildirir:

**(Loğman oğluna belə nəsihət etdi:) "Ey oğlum! Şübhəsiz, (etdiyin yaxşı və ya pis bir iş) xardal dənəsi ağırlığında olub bir qayanın içində, yaxud göylərdə və ya yerin içində olsa belə, Allah onu (sənin qarşına) gətirər. Həqiqətən, Allah lətifdir (ən gizli və ən incə işləri də görəndir), hər şeydən xəbərdardır.**

**(Loğman surəsi, 16)**

**Allah onların əməllərini ən gözəli ilə mükafatlandırsın deyə, az və ya çox onların infaq etdikləri hər bir şey və keçdikləri hər bir vadi, mütləq onlara savab olaraq yazılar. (Tövbə surəsi, 121)**

## Münafiqlər and içərək yalan danışarlar

Yalan, münafiqlərin mömin camaatı içində özlərini gizlətmək və saxtakarlıqlarını ört-basdır etmək üçün ən çox əl atdıqları yollardan biridir. Buna görə də münafiqlər möminlərə yalan danışmağı vərdiş halına gətiriblər. Bu yalanlarla möminləri inandırmaq üçün tez-tez and içirlər. Allah onların bu mövzudakı həqiqi niyyətini belə xəbər verir:

**Onlar andlarını özlərinə sipər edib (insanları) Allah yolundan döndərdilər. Onları alçaldıcı bir əzab gözləyir.**

**(Mücadilə surəsi, 16)**

Quranda münafiqlərin yalandan and içdiklərinə dair başqa bir ayədə belə buyurulur:

**Onlar bilə-bilə yalandan and içirlər. (Mücadilə surəsi, 14)**

Digər tərəfdən, münafiqlər yalan danışarkən bunun ortaya çıxmayacağını və ya qarşılıqsız qalacağını düşünməklə çox yanılırlar. Çünki **"Allah onların yalan danışdığını bilir"** (Tövbə surəsi, 42) və **"Buna görə də onlar üçün böyük əzab var"** (Bəqərə surəsi, 10).

## Münafiqlər namazı göstəriş üçün qılırlar

Allah Quranda insanların razılığı üçün namaz qılanlardan belə bəhs edir:

**Vay halına namaz qılanların – o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar (Maun surəsi, 4-6)**

Allah bu ayələrlə münafiq xüsusiyyətini bizə tanıdır. Möminlər isə **"Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər" (Muminun surəsi, 1-2)** ayələrində bildirildiyi kimi, namazda qəlbən Allaha yönələn və Allaha hörmət dolu qorxu duyan şəxslərdir.

Münafiqlərin namaz qılarkən insanlara özlərini göstərmək məqsədi ilə etdiklərini başqa ayələrdə bildirilir:

**...Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər... (Nisa surəsi, 142)**

**...Onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar.**

**(Maun surəsi, 5-6)**

## Münafiqlər Allahın deyil, insanların razılığını axtarırlar

Münafiqlər namazda olduğu kimi, əməlləri ilə də Allahı deyil, möminlərə razı salmağa çalışırlar. Özlərini təqvalı (Allahın hədlərini qoruyan) göstərmək üçün şişirdilmiş hərəkətlərə əl atırlar. Özlərini ön plana çıxarmağa, gördükləri işi hamıya eşitdirib möminlərin gözündə "xal" toplamağa çalışırlar. Quranda münafiqlərin bu qeyri-səmimi davranışları belə vurğulanır:

**Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər. Əgər mömindirlərsə, bilsinlər ki, Allahı və Onun Elçisini razı salmaları daha yaxşıdır. (Tövbə surəsi, 62)**

Münafiq imanında səmimi olmadığı üçün etdiyi yaxşılığın gizli qalmasından çox narahat olur. Etdiklərinin çox adamın bilməyini istəyir ki, möminlərin təqdirini qazana bilsin. Tək məqsədi odur ki, özünü önə çıxararaq insanlar arasında yer tutub etibar qazansın. Unutmaq olmaz ki, münafiqlərin

niyyəti səmimi olmadığı və Allahın razılığını istəmədikləri üçün əməllərinin qarşılığı axirətdə fərqli olacaq. Allah bir çox ayələrdə çalışıb boş yerə yorulanlardan, əməlləri puç olanlardan bəhs edir. Buna görə də bu cür əxlaqa sahib olanlar belə bir aqibətdən çəkinməlidirlər.

## Münafiqlər mallarını nümayiş üçün xərcləyirlər

Münafiqlərin nümayiş üçün təqlid etdiyi ibadətlərdən biri də infaqdır. "İnfaq" Allah yolunda və Allah rizası üçün hər cür xərc çəkmək və bağışlamaq mənasına gəlir. Möminlər mallarını Allah rizası üçün xərclədikləri halda, münafiqlər bunu insanlar üçün edirlər. Allah Quranda münafiqlərin bu hərəkətini aşağıdakı ayə ilə xəbər verir:

**Və o kəsləri ki, öz mallarını insanlara göstərmək məqsədilə xərcləyir, Allaha və axirət gününə inanmırlar. Kimin yoldaşı şeytandırsa, necə də pis yoldaşdır o! Məgər onlar Allaha və axirət gününə iman gətirib Allahın onlara verdiyi ruzidən Onun yolunda xərcləsəydilər, nə itirərdilər? Allah onların hər bir işini bilir. (Nisa surəsi, 38-39)**

Lakin münafiqlərin insanlar üçün etdiklərinin Allah qatında qəbul edilmədiyi Quranda belə bildirilir:

**De: "İstər könüllü, istərsəniz də könülsüz xərcləyin, onsuz da sizdən qəbul olunmayacaq. Çünki siz fasiq bir qövm oldunuz!" Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allahı və Onun Elçisini inkar edir, namaza tənbəlliklə qalxır və mallarını könülsüz xərcləyirlər. (Tövbə surəsi, 53-54)**

Ayələrdə münafiqlərin ibadətləri istəksiz və ya xoşlarına gəlmədiyi halda etdikləri xəbər verilir. Bu onların dünyada sıxıntı içində yaşamalarının

səbəbidir. Onların əməllərinin hamısı nümayiş xarakteri daşıdığı üçün boşa getmişdir. Bundan başqa, Allah həmin səmimiyyətsiz insanların əsil üzlərini dilədikdə möminlərə də göstərir və əməlləri dünyada da boşa çıxarır. Belə vəziyyətdə münafiq insanların da razılığını əlindən çıxarmış olur.

Allah bir başqa ayədə nümayiş üçün infaq edənlərin ibadətlərinin əsassız olduğunu və Öz rizası üçün infaq edənlərin üzərindəki bərəkətini aşağıdakı nümunə ilə açıqlayır:

**Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz. Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 264-265)**

## Münafiqlər Allah yolunda ciddi fədakarlıq göstərmirlər

Münafiqlər müsəlmanların işini və elmi fəaliyyətlərini özlərini heç bir çətinliyə salmadan yalnız bir tərəfdən dəstəkləyirlər. Beləcə, o işi görənlər arasında sayılmış olurlar, amma eyni zamanda nə yorulurlar, nə yuxusuz qalırlar, nə də ciddi səy göstərib əmək sərf edirlər. Allah bu əxlaq pozğunluğunu bir ayədə belə bildirir:

**İnsanlardan eləsi də var ki, Allaha şübhə içində ibadət edər. Əgər ona bir xeyir toxunsa, rahat olar. Əgər o bir müsibətə düçar olsa, çöhrəsi dəyişər (küfrə geri dönər). O, dünyada da, axirətdə də ziyana düşmüşdür. Açıq-aşkar ziyan məhz budur!**

**(Həcc surəsi, 11)**

Bundan əlavə, münafiqlər, "**Şübhəsiz ki, Allah möminlərdən canlarını və mallarını cənnət müqabilində satın almışdır....**" (Tövbə surəsi, 111) ayəsində təsvir edilən nümunəvi mömin davranışını heç vaxt etməzlər.

Möminlər yuxarıdakı ayə əsasında lazım olduqda bütün imkanlarını Allahın razı olduğu xeyirli işlərdə istifadə etməkdən çəkinmirlər. Halbuki münafiq möminlərin yanına mənfəət üçün gəlir. Edəcəyi fədakarlıq isə Allah rizası üçün deyil, gələcəkdəki mənfəəti üçündür. Mömin görünüb az xərcləməklə möminlərin sahib olduğu daha böyük imkanlardan istifadə etməyi düşünür. Quranda onların xəsis olmasına bu cür diqqət çəkilir:

**Onlardan: "Əgər Allah Öz lütfündən bizə bəxş etsə, əlbəttə, biz sədəqə verər və əməlisalehlərdən olarıq!"– deyə Allaha əhd edənləri də vardır. Allah Öz lütfündən onlara verdikdə isə simiclik edərək üz çevirib getdilər. Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan söylədiklərinə görə Allah da onların qəlblərinə Onunla qarşılaşacaqları günədək nifaq saldı.**

**(Tövbə surəsi, 75-77)**

Münafiqlərin xəsis və eqoist xarakterinin əksinə olaraq, möminlər həmişə fədakarlıq edirlər. Çünki möminlər etdiklərinin qarşılığını Allahdan gözləyir və məqsədləri axirəti qazanmaqdır. Möminlər dünyanın keçici və yararsız olduğunu bilir və bu dünyada yalnız Allahın rizasını qazanmaq üçün olduqlarının dərk edirlər.

## Münafiqlər tamahkar və eqoistdirlər

Münafiqlər Allahın rizasını axtarmadıqları üçün həmişə müsəlmanlardan kiçik mənfəətlər əldə etməyə çalışırlar. Buna görə də möminlərin fədakar və nəcib rəftarının əksinə olaraq, tamahkar və eqoistdirlər. Onlar yalnız öz rahatlığını, öz komfortunu düşünür, yalnız onları maraqlandıran məsələlərə üstünlük verirlər. Zəif ağılları ilə, digər möminlərə gözəllik təklif etməyi, onlara rahatlıq verməyi, onlara kömək etməyi, onları sevindirəcək hər cür yaxşı işi "ağılsızlıq" hesab edərlər.

Buna görə də, müsəlmanlara kiçik bir hədiyyə verməkdən belə qəti şəkildə çəkinirlər. Amma həmişə müsəlmanların onlara yaxşılıq etməsini gözləyirlər və bu mövzuda ən kiçik qüsuru belə günlərlə dilə gətirirlər. Özlərini ələ verməmək üçün hər hansı yaxşılıq etmək və ya fədakarlıq etməli olsalar da, daxilən iztirab hiss edərlər. Quranda münafiqlərin möminlərdən qazanc əldə etmək istəyi belə bildirilir:

**Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar. Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər. Kaş ki onlar Allahın və Onun Elçisinin onlara verdiyinə razı qalıb: "Allah bizə yetər. Allah da bizə Öz lütfündən verəcək, Onun Elçisi də. Həqiqətən də, biz Allaha rəğbət bəsləyirik", – deyəydilər. (Tövbə surəsi, 58-59)**

Ayədəki "**Allah bizə yetər**" sözü möminlərin düşüncəsindən xəbər verir. Mömin, əməllərinin qarşılığında axirətdə olacağını bilir. Allah onu cənnəti və rəhməti ilə mükafatlandıracaq. Buna görə də dünyadakı kiçik mənfəətlər üçün acgözlük etmək, Peyğəmbərə və möminlərə müxalif olmaq möminə əsla yaraşmaz. Mömin aşağıdakı ayənin hökmünə girməkdən çox narahat olar:

**Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir. (Nisa surəsi, 115)**

## Münafiqlər gizli toplantılar təşkil edib möminlərə qarşı planlar qururlar

Əgər mömin topluluğunda birdən çox münafiq varsa, onlar bir-biriləri ilə gizli əlaqə qurar və Quranda xəbər verildiyi kimi, gizli söhbətlər təşkil edərlər.

Möminlərin arasında gizlənməyə çalışan münafiq qısa müddət ərzində kimlərin onunla eyni xarakterdə olduğunu hiss edir. Çünki digərləri də onun kimi fədakarlıqdan qaçan, sevgidən uzaq olan təkəbbürlü şəxslərdir. Mömin topluluğunda başqalarının da onun kimi olduğunu anlayan münafiq onlara yaxınlaşıb yeni qrup qurar, beləliklə də, möminlərdən uzaq durub birləşirlər. Çünki möminlərin yanında rahat olmurlar; möminlər onları Qurana uyğun olmayan hərəkətlərə görə davamlı xəbərdar edib fədakarlığa çağırırlar. Ancaq ibadətlərində axsaqlıq edən və mənfəətini qoruyan başqa münafiqlərin yanında çox rahat olurlar.

Münafiqlərin bir araya gəlib gizli söhbət təşkil etmələri Quranda bildirilmişdir. Gizli toplantılarda münafiqlər möminlər və Peyğəmbər haqqında fitnəkar söhbətlər edirlər. Quranda onların bu hərəkətlərindən belə bəhs edilir:

**Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir. (Mücadilə surəsi, 8)**

Allah, gizli söhbətlərdən xəbər verən başqa bir ayədə həmin toplantıların gecə vaxtı olduğunu bildirir:

**Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər. Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)**

Başqa bir ayədə isə Allah münafiqlərin həmin əməllərini şeytandan olduğunu belə xəbər verir:

**Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır... (Mücadilə surəsi, 10)**

Münafiqlər özlərini mömin kimi göstərərək müsəlmanlar arasında öz yerlərini tutmağa çalışarkən, kafirlərə də xəbər daşıyarlar. Bu yolla möminlərə zərər verib və zərərsizləşdirə biləcəklərini, Allah yolunda elmi fəaliyyətlərinə mane ola biləcəklərini düşünürlər. Peyğəmbərimiz (s.ə.v) zamanında da nümunələri yaşanan münafiqlərin bu rəftarı, "**...içinizdə elələri var ki, onlara (kafirlər) xəbər daşıyırlar. Allah zalımları bilir.**" (Tövbə surəsi, 47) ayəsi ilə bildirilmişdir. Quranda münafiqlərin bu xüsusiyyəti "**başqa bir topluluq adında qulaq asanlar (xəbər toplamaq)**" şəklində də ifadə edilmişdir. Ayədə Allah buyurur:

**Ey Elçi! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!"– deyən kimsələrdən küfrə can atanlar qoy səni kədərləndirməsin. Həm yəhudilərdən yalana həvəslə qulaq asanlar, həm də sənin yanına gəlməyən başqa bir camaata həvəslə qulaq asanlar vardır... (Maidə surəsi, 41)**

Münafiqlər, guya bir neçə şeytani oyun ilə, çox güclü hesab etdikləri küfrün şeytani dəstəyi ilə, bir neçə hiylə, vicdansızlıq və əxlaqsızlıqla möminləri məğlub edə biləcəklərinə inanırlar. Ancaq çox vacib bir faktı nəzərə almırlar. Ağılları və imanları da çox zəif olduğu üçün Allahın möminlərə olan köməyini, dəstəyini və müdafiəsini görməməzlikdən gəlirlər. Halbuki Allah Quranda möminlərə qarşı küfrə əsla yer verməyəcəyini bildirmişdir. (Nisa

surəsi, 141) Başqa bir ayədə Allah, **"İman gətirənlərə kömək etmək bizim haqqımızdır" deyərək**, möminləri mütləq qoruyacağı ilə bağlı bizə müjdə vermişdir.

**ADNAN OKTAR:** Onların baxışları da anormal olur, buradan da əxlaqsızlıqları başa düşülür. Amma qəti diaqnoz üçün münafiqliyini açıq elan etməsi ilə mümkün olur. Yəni müsəlmanlara açıq şəkildə qarşı çıxması ilə bəlli olur. Küfrə müsəlmanlar haqqında məlumat ötürməsi, onların bölünüb-parçalanması üçün çalışması, möminlərin düşmənləri ilə ittifaq qurması onu tam olaraq üzə çıxarır. Peyğəmbərimizin dövründə də elə idi.

Münafiqlər müsəlmanlara hücum edən kafirlərə müntəzəm olaraq məlumat ötürürdülər. Lakin çox qorxaq idilər, onların tərəfinə tam keçmirdilər. Müsəlmanların da tərəfində deyildilər. Allah bir ayədə onlar haqqında: **"Sanki heç bir şey olmamış kimi müsəlmanların yanına gəlirlər",** - buyurur. Başqa bir ayədə də onların: **"Məgər biz də sizinlə deyildikmi?"** - dedikləri xəbər verilir (Nisa surəsi, 141). Bu cür əxlaqsız olurlar, sanki daha əvvəl pislik edən onlar deyildilər (Adnan Oktarın "Tempo TV" müsahibəsindən, 28 yanvar 2009-cu il).

# MÜNAFİQLƏRİN AĞILSIZLIQLARI

Münafiqlərin ən əsas xüsusiyyətlərinin başında, başqa inkarçılar kimi ağılsızlıqları gəlir. Bəziləri görünüşdə zəkalı ola bilərlər, amma əsla Quranı anlamaq və yaşamaq üçün lazım olan ağıla sahib deyillər. Buna görə də hadisələrə ağılsızlıqla yanaşırlar, Allahı və mömінləri də təqdir edə bilmirlər.

## Münafiqlər, etdiklərindən Allahın xəbərsiz olduğunu zənn edirlər

Allahın onlardan xəbərsiz olduğunu sanmaq münafiqlərin ən böyük ağılsızlığıdır. Hər şeyi möminlərin üzərindən düşünürlər. Elə güman edirlər ki, möminləri razı salıb inandırsalar, heç bir problem olmadan istədiklərini əldə edə biləcəklər. Halbuki Allah münafiqlərin əməllərindən xəbərdardır. Heç bir hərəkətləri və heç bir düşüncələri Allahdan gizli qalmaz. Ağıllarından keçən və qəlbində olan hər şeyi Allah əhatə etmişdir. Bir ayədə insanlar belə xəbərdar edilir:

**...Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!"– deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah kökslərdə olanları bilir. (Ali İmran surəsi, 119)**

Münafiqlər Allahın onlardan xəbərsiz olduğunu düşünüb bir müddət möminləri aldatdıqlarını zənn edə bilərlər. İkiüzlü hərəkətlərinin qısa zamanda ortaya çıxmaması onları cəsarətləndirə bilər. Münafiqlərin bu yanlış düşüncəsi Quranda belə xəbər verilir:

**Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi? Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?"– deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir. (Mücadilə surəsi, 8)**

Münafiqlərin dediyi **"Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?"** sözü onların nə qədər ağılsız və düşüncəsiz olduqlarını göstərir. Allahın onlara sonsuza qədər vaxt verdiyini, bundan dolayı da ikiüzlülüklərini davam etdirəcəklərini düşünürlər. Halbuki bu əsla belə deyil, Allah onları mütləq üzə çıxaracaqdır. Allah Quranda möminlərə bu həqiqəti belə bildirir:

**Yoxsa qəlbində xəstəlik olanlar (münafiqlər) Allahın onların kinlərini üzə çıxartmayacağınımı zənn etdilər? Əgər istəsəydik, onları, əlbəttə, sənə göstərərdik. Beləcə, sən də onları üzlərindən tanıyardın. Həqiqətən, sən onları danışıq tərzindən tanıyarsan. Allah sizin əməllərinizi bilir. Həqiqətən, içinizdən cihad edənləri və səbir edənləri ortaya çıxarana qədər sizi sınayacaq və haqqınızdakı xəbərləri yoxlayacağıq.**

**(Məhəmməd surəsi, 29-31)**

## Münafiqlər Allahın möminlərə dəstək verdiyini anlamırlar

Münafiqlər, Allahın möminlərə olan köməyindən və dəstəyindən xəbərsizdirlər. Halbuki möminlər Allahın himayəsində olan insanlardır. Allah Quranda Özünə səmimi qəlbdən iman gətirən bəndələrinə ən çətin şəraitdə belə mütləq çıxış yolu göstərəcəyini, onları mütləq qoruyacağını vəd edir.

**...Kim Allahdan qorxarsa, Allah onun üçün bir çıxış yolu yaradar. Və heç gözləmədiyi bir yerdən Allah ona ruzi yetirər. Kim Allaha təvəkkül edərsə, Allah ona yetər. Şübhəsiz ki, Allah istədiyini edəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur.**

**(Talaq surəsi, 2-3)**

Uca Rəbbimiz başqa ayələrində isə səmimi möminlərə küfrün heç vaxt onlara zərər verə bilməyəcəyini bildirərək möminlərə mütləq kömək edəcəyini müjdələyir:

**...Allah sizin aranızda hökm verəcək və kafirlərə, möminlərin əleyhinə bir yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

**...Möminlərə yardım etmək Bizim borcumuzdur. (Rum surəsi, 47)**

Münafiqlər bəzən möminlərdən daha zəngin, daha yüksək dərəcə və şöhrət sahibi ola bilərlər. Onlar həmçinin fiziki olaraq daha göstərişli və diqqətəlayiq görünüşə sahib ola bilərlər. Necə ki, Allah Quranda münafiqləri təsvir edərkən, **"Onları gördüyün zaman cüssələri sənin xoşuna gələr...". (Münafiqun surəsi, 4)** deyə bildirməkdədir.

Bu cür səbəblərə görə münafiqlər möminlərdən üstün olduqlarını düşünürlər. Halbuki, Allah həmin ayənin davamında **"Onlar sanki divara söykədilmiş kötüklər kimidirlər"** deyərək əslində maddi xüsusiyyətlərin nə qədər əhəmiyyətsiz və dəyərsiz olduğunu bizə bildirmişdir.

Allah Quranda münafiqlərin ağılsızlığını və möminlərin nə olursa olsun Allahın köməyi ilə kafirlərə və münafiqlərə qalib gələcəklərini belə bildirir:

**Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, üstün olanlar zəif olanları mütləq oradan çıxardacaqdır", - deyirlər. Halbuki əsil üstünlük Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur. Lakin münafiqlər bunu bilməzlər. (Münafiqun surəsi, 8)**

ADNAN OKTAR: Münafiqlərin bir cəhəti də, maddi, zahiri, hər cəhətdən özlərini daha üstün və seçilmiş görürlər. Buna görə insanlara dəyər verirlər. Məsələn, pul haradadırsa ora gedirlər, yemək haradadırsa ora gedirlər, Quran buna işarə etmişdir. Müsəlmanların yanında qalma məqsədi budur. Məsələn, müsəlmanın evində buğda var, qurd kimi buğdaya dadanır. Bu cür parazit məxluqdurlar. Öz buğdasını yedikdən sonra ac qalarsa, gedib başqa yerdə axtarmağa başlayır. Qurd kimi sürünərək gedib axtarmağa başlayar. Bu onların problemi olduğu üçün münafiqlər ancaq faydalanmaq üçün yer axtarırlar. (Adnan Oktarın "Çay TV" müsahibəsindən, 3 avqust 2010)

## Münafiqlər, Allahın qəzəbindən daha çox inkar edənlərin azabından qorxurlar

Daha əvvəl də qeyd etdiyimiz kimi, münafiqlər möminlərlə birlikdə olduqları müddət ərzində onlar kimi davranır və onları təqlid edirlər. Lakin möminlərin çətin imtahanı zamanı, yəni inananları ortaya çıxaracaq əsil fədakarlıq və sədaqət dövrlərində münafiqlərin ikiüzlülükləri ortaya çıxır. Bu onların çox qorxaq olduğundan və ayədəki ifadə ilə desək, **insanlardan Allahdan qorxan kimi, hətta daha şiddətlə qorxmasından** irəli gəlir. Peyğəmbərimizin (s.ə.v) dövründə çətin anlarda münafiqlərin əxlaqsızlıqları ayələrdə belə xəbər verilmişdir:

**Məgər sən, özlərinə: "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!"– deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə**

**yaxın vaxtadək möhlət verəydin!"– dedilər. De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz". (Nisa surəsi, 77)**

**İnsanların arasında: "Allaha iman gətirdik!"– deyənləri də vardır. Amma Allah yolunda əziyyətə məruz qaldıqda insanların fitnəsini Allahın əzabı ilə eyni tuturlar. Əgər Rəbbindən bir zəfər gəlmiş olsa, mütləq: "Biz də sizinlə idik!"– deyərlər. Məgər Allah yaradılmışların köksləində olanları ən yaxşı bilən deyilmi? (Ənkəbut surəsi, 10)**

## Münafiqlər öz aralarında da anlaşa bilmirlər

Birlik və bərabərlik möminlərin ən yaxşı xüsusiyyətlərindən biridir. Münafiqlərdə isə bunun tam əksinədir, öz aralarında da münaqişə və ayrılıq olur. Çünki möminlər kimi yeganə hədəfləri yoxdur, yəni Allahın razılığını qazanmağa çalışmırlar. Ancaq öz mənfəətlərinin arxasınca qaçdıqlarına görə təbii olaraq aralarında anlaşılmazlıq meydana gəlir. Quranda onların bu xüsusiyyətinə belə diqqət çəkilir:

**...Öz aralarındakı vuruşmaları isə çox şiddətlidir. Sən onların həmrəy olduqlarını zənn edərsən, halbuki qəlbləri müxtəlif düşüncələr içindədir. Çünki onlar dərk etməyən bir tayfadır. (Həşr surəsi, 14)**

**ADNAN OKTAR:** Münafiqlər bir-birlərinə şiddətlə nifrət edirlər. Bir-birlərini çox alçaq görürlər... Əlbəttə, Quranda da vardır. "... Amma onların qəlbləri parça-parçadır..." (Həşr surəsi, 14) deyir. Aralarında ağlasığmaz bir nifrət var. Çünki hamısı bir-birindən şərəfsiz olduğunu bilir, amma mənfəət qrupu yarandığı üçün şəxsi mənfəətlərinə görə bir-birinin əleyhinə danışmırlar. (Adnan Oktarın "Kocaeli TV" müsahibəsindən, 31 iyul 2010)

## Münafiqlər özlərini ağıllı düşünürlər

Münafiqlər möminləri aldatmaqla özlərinin çox ağıllı olduqlarını güman edirlər. Elə düşünürlər ki, möminlər kimi fədakarlıq etmədikləri və Allahın rizasını qazanmadan yaşadıqları üçün qazanc əldə edəcəklər. Halbuki burada ən böyük ağılsızlığa yol verirlər. Onlara dini öyrənib Allahın rizasını və cənnətini qazanmaq fürsəti verilməsinə baxmayaraq, nemətləri görməzlikdən gəlib dünya həyatının yararsız və keçici bəzəyinə göz dikirlər. Buna görə də kiçik mənfəətlər ucbatından böyük əzaba, yəni cəhənnəmə layiqdirlər. Üstəlik dünyada da vicdan əzabı çəkib daim şübhə içində yaşayacaqlar.

Özlərini ağıllı zənn etsələr də, Quranda münafiqlərin, əslində, ağılsız olduqları bildirilir:

**Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!"– deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?"– deyirlər Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər. (Bəqərə surəsi, 13)**

ADNAN OKTAR: Münafiqi yaxşı anlamayanlar təəccüblənirlər. Məsələn, münafiqin həyasızlığına təəccüblənirlər. Onun çirkin danışığından təəccüblənirlər, çirkin əməlindən təəccüblənirlər, aqressivliyindən təəccüblənirlər. Onun həm müsəlman görünməsinə, həm də gizlincə müsəlmanlara zərər verməsinə təəccüblənirlər.

Məsələn, müsəlmanların başına yaxşı bir şey gələndə sevinir, müsəlmanlar çətinliklə üzləşəndə özünü əzab çəkirmiş kimi göstərər. Ancaq bir yaxşılıq gələndə əslində əziyyət çəkir. Münafiq dərdini də, sevincini də özünəməxsus şəkildə gizlədir. Məsələn, müsəlmana bir bəla toxundu, məsələn, ona bir çətinlik dəydi, ağlaya bilər. Amma danışığından saxta olduğunu başa düşərsən, yəni fərasətlə, bəsirətlə başa düşmək olur.

Münafiq çox şeytanidir, çox xüsusi bir üsuldan istifadə edir. Münafiq, ağlı ilə bir şey edə biləcəyini düşündüyü üçün özünə heyran olar. Başqa sözlə, o, özünü ilahiləşdirir. O, zəkasının əlçatmaz bir zəka olduğunu düşünür. Müsəlmanlara nifrət etməsinin səbəbi, ağlının üstün olduğuna inanmasıdır.

Məsələn, deyir ki, mən xəbərçiyəm, bilmirlər. “Casusluq edirəm, bilmirlər”, “Mən alçaqlıq edirəm, bilmirlər” və “Mənimlə baş edə bilmirlər” deyir. Onların öhdəsindən gələ bilmədiklərinə sevinir, halbuki müsəlmanlar ona səbir edirlər. Əxlaqsızlığına səbr edir; səbr etdikcə savab alır və dərəcələri yüksəlir. O axmağın cəhənnəmi daha da genişlənir, daha da batır. (Adnan Oktar, “A9 TV” müsahibəsindən, 22 yanvar 2016)

# MÜNAFİQLƏRİN FİTNƏKAR XÜSUSİYYƏTLƏRİ

Möminlər arasında fitnə çıxarmağa çalışmaq münafiqlərin ən əsas xüsusiyyətlərindən biridir. "Fitnə" möminlərin birliyini, həmçinin Allah, Quran və Peyğəmbərə olan sədaqətini pozmağa çalışılan hər cür danışıq və hərəkətdir. Münafiqlər yanlış yol tutduqlarına görə möminləri də bu yanlışlığa təhrik edirlər. Bunu etmək üçün xüsusilə çətin mühitləri fürsət kimi görürlər. Halbuki bu hədəflərinə heç vaxt çata bilməzlər. Çünki münafiqlərə möminlərin əleyhinə yol verməmək Allahın qanunudur.

Münafiqlər, müsəlman adı altında özlərini sezdirmədən şeytana qulluq edirlər. İman gətirənləri azdırıb öz arxasınca sürükləmək şeytanın məqsədi olduğu kimi, münafiq də eyni düşüncə ilə müsəlmanların arasında fitnə çıxarıb onların haqdan üz çevirmələri üçün çalışır.

## Ətrafındakılara vasvasa vermaya çalışırlar

Möminlərin olduğu yerdə daim şövq və həyəcan vardır. Bir yerə toplaşdıqda hadisələrin xeyir yönündən bəhs edir, Allahın vədlərini müjdələyir və faydalı söhbətlər edirlər. Bununla yanaşı, taleni dərk etmələri danışıqlarına əks olunur. Məsələn, təhlükədən və ya hər hansı mənfi hadisədən bəhs etdikdə, bunun taledə olduğunu və xeyirlə yaradıldığını səmimi şəkildə qeyd edirlər. Münafiqlərdə isə bunun tam əksi olur və "kaş bunu etməyəydik", "çox pis oldu" kimi ifadələr işlətməklə qəlbindəki xəstəliyi danışıqlarında da gizlədə bilmirlər. Bu isə onların Allahın gücünü təqdir edə bilmədiklərindən qaynaqlanır.

Münafiqlər bu üslubla səmimi müsəlmanlara vəsvəsə verməyə çalışırlar. Allah möminləri bu təhlükəyə qarşı xəbərdar etmiş və Quranda vəsvəsə verənlərin şərindən belə bəhs etmişdir:

**De: "Sığınıram insanların Rəbbinə, İnsanların hökmdarına, İnsanların ilahına, Vəsvəsə verib (Allahın adı çəkildiyi zaman) gizlənənən şeytanın şərindən! O, insanların qəlbinə vəsvəsə salar. O, cinlərdən də olur, insanlardan da". (Nas surəsi, 1-6)**

Məhz münafiqlər bu cür çətinlik vermə, şövq qırma, ruhdan salma, ümidsizliyə sürümə, şübhəyə salma kimi niyyətlərlə Allahın taledə xeyirlə yaratdığı hadisələri neqativ və ya fəlakətdən bəhs edirmiş kimi deyərlər. İstifadə etdikləri bu fəlakət üslubu onların həm Allahın gücünü təqdir edə bilmədiklərinin, həm də ruhlarındakı şeytanlığın bir göstəricisidir.

Halbuki insanın hər anı, ən incə detalına qədər tale daxilində hərəkət etməkdədir və hər hadisə Allahın idarəsi altında, Onun icazəsi ilə reallaşmaqdadır.

## Çətin anlarda fitnə çıxarırlar

Münafiqlər hiyləgər xüsusiyyətlərini çətin anlarda büruzə verirlər. Təqvalı müsəlmanları yoldan çıxartmaq üçün başqa münafiqlərlə planlar qurub gizli işlər görürlər. Belə ki, inkarçılarla əlbir olmaqdan belə çəkinmirlər. Ancaq onlar unudurlar ki, onların bütün hərəkətləri taledə öncədən müəyyən edilmişdir və Allah onların əməllərinə şahidlik etmişdir. Rəbbimiz **"Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir" (Nisa surəsi, 141)** ayəsi ilə münafiqlərin cəhdlərinin heçə çıxacağını xəbər vermişdir. Bir başqa ayədə isə Allah möminlərin həmişə qalib gələcəyini belə vurğulayır:

**Kim Allahı, Peyğəmbərini və iman gətirənləri dost tutarsa, bilsin ki, həqiqətən, qalib gələcək olan məhz Allahın tərəfdarlarıdır. (Maidə surəsi, 56)**

Münafiq gücsüz kimi gördükləri vaxtlarda möminləri sədaqətsizliyə, xainliyə və ümidsizliyə sürükləmək istəyir. Buna görə ətrafındakıları

hiyləgərliklə özünə tərəf çəkməyə çalışır. Bunu edərkən iftira atmaq münafiqin əl atdığı yollardan biridir.

Quranda münafiqlərin **"Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir" (Əhzab surəsi, 12)** və **"Bunları öz dinləri aldatdı!" (Ənfal surəsi, 49)** kimi ifadələrlə iman gətirənlərə vəsvəsə verməyə çalışacaqları xəbər verilmişdir. Münafiqlər möminlərin fərqində olmadığı həqiqətləri ağılsızca guya özlərinin bildiyini düşünürlər.

Bunun bir nümunəsini Quranda xəbər verilən münafiq Samirinin **"Mən onların görmədiklərini gördüm" (Taha surəsi, 96)** sözü ilə Hz. Musa qövmünü azdırmağa çalışmasında görə bilərik.

Münafiqlərin çətin anlarda fitnə çıxarmalarının bir səbəbi də odur ki, onlar belə vaxtlarda rahat hərəkət etmək fürsəti tapırlar. Samiri fitnəni yalnız Hz. Musanın olmadığı və qövmünün yönləndirilməyə uyğun hala gəldiyi mühitdə çıxarmışdır. Doğru yoldan azan qövmün: **"Musa yanımıza qayıtmayınca biz ona sitayiş etməkdən əl çəkməyəcəyik!" (Taha surəsi, 91)** – deməyi münafiqlərin fitnə çıxarmaq üçün qarışıq və çətin mühitlərə fürsət kimi baxdıqlarının əhəmiyyətli dəlilidir.

Hz. Məhəmmədin dövründəki münafiqlərin də Peyğəmbərimizin və yanındakı möminlərin güclü olduğu müddət boyu fitnə çıxara bilmədikləri çox diqqət çəkicidir. Quranda münafiqlərin savaş mühitində möminlərin arasını vurmaq üçün qarışıqlıqdan istifadə etdikləri belə bildirilir:

**Orada möminlər sınağa çəkilmiş və şiddətlə sarsılmışdılar. O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və peyğəmbəri bizə yalnız yalan şeylər vəd ediblər", - deyirdilər. (Əhzab surəsi, 11-12)**

Münafiqlərin bu sözləri onların dinə baxışını özündə əks etdirir. Çünki mömin topluluğuna gəlib onlar kimi davranmaqla dünyəvi mənfəət əldə etmək istəmişdilər. Lakin qarşıya çıxan çətinlik onlara sıxıntı vermiş və əməklərinin heçə getdiyini düşünmüşdülər. Buna görə də ətrafdan gələcək reaksiyaları düşünüb möminləri də öz qorxularına ortaq etməyə çalışmışdılar. Digər tərəfdən, möminlərin buna qarşı rəftarı Quranda belə bildirilir:

**Möminlər (düşmən) dəstələrini gördükləri zaman: "Bu, Allahın və Peyğəmbərinin bizə olan vədidir. Allah və Peyğəmbəri doğru söyləmişdir!" - dedilər. Bu (düşmən dəstələrinin gəlməsi) onların yalnız imanını və itaətini artırdı. Möminlərin arasında elələri vardır ki, Allaha verdikləri sözə sadiq qalarlar. Onlardan kimisi şəhid olmuş, kimisi də (şəhidliyi) gözləyir. Onlar verdikləri sözü qətiyyən dəyişdirmədilər. Çünki, Allah doğru olanları doğruluqlarına görə mükafatlandıracaq, münafiqlərə də istəsə əzab verəcək, yaxud da onların tövbələrini qəbul edəcəkdir. Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir. (Əhzab surəsi, 22-24)**

## Münafiqlər, Allah üçün mübarizədən bəhanə gətirərək qaçırlar

Münafiqlər, çətin və sıxıntılı vəziyyətdə möminləri tərk edib öz mənfəətlərini qurtarmağa çalışırlar. Lakin ayrılarkən də ikiüzlülük edib özlərini haqlı çıxarmağa cəhd göstərirlər. "Bizə zərər toxunmasından qorxuruq, Allaha təvəkkül edə bilmirik", – deməzlər. Bunun yerinə bəzi ağılsız bəhanələr irəli sürürlər. Peyğəmbərimizin dövründəki yaşamış münafiqlərin önə sürdüyü bəhanələrin bəziləri Quranda belə bildirilir:

**İki ordunun üz-üzə gəldiyi gün sizin başınıza gələn fəlakət də yalnız Allahın izni ilə oldu ki, möminləri ayırd etsin Və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda vuruşun, yaxud müdafiədə olun!" – deyildiyi zaman onlar belə dedilər: "Əgər vuruşmağı bilsəydik, əlbəttə, sizin arxanızca gələrdik". Onlar o gün imandan çox küfrə yaxındılar. Qəlbində olmayan bir şeyi ağızları ilə söyləyirlər. Halbuki, Allah onların (qəlbində) gizlətdikləri şeyi daha yaxşı bilir. (Ali İmran surəsi, 166-167)**

**Bədəvi ərəblərdən geridə qalanlar sənə: "Mallarımız və ailələrimiz bizi (döyüş üçün səfərə çıxmaqdan) yayındırdı. Ona görə də Allahdan bizim bağışlanmağımızı dilə!" - deyəcəklər. Onlar dilləri ilə qəlbində olmayanı deyirlər. De: "Əgər Allah sizə bir zərər, yaxud xeyir vermək istəsə, kim Ona qarşı çıxa bilər?! Xeyr! Allah sizin etdiklərinizdən xəbərdardır. (Fəth surəsi, 11)**

**...Onlardan bir dəstə də Peyğəmbərdən izin istəyərək: "Həqiqətən, evlərimiz açıqdır (təhlükə altındadır)", - deyirdilər. Halbuki, evləri açıq deyildi. Onlar sadəcə olaraq (döyüşdən) qaçmaq istəyirdilər. (Əhzab surəsi, 13)**

Göründüyü kimi, münafiqlərin irəli sürdüyü bəhanələr "savaşmağı bilmirik", "ailəmizi qorumaq məcburiyyətindəyik" kimi çox ağılsız ifadələrdən ibarətdir. Ancaq Allah onların vəziyyətini **"qəlbində olmayanı ağızları ilə deyirlər"** (Ali İmran surəsi, 167) şəklində xəbər verir. Üstəlik bunu deyəndə Allaha da and içirlər. Bu haqda başqa bir ayədə belə bildirilir:

**...Onlar: "Əgər gücümüz çatsaydı, mütləq biz də sizinlə bərabər (səfərə) çıxardıq", - deyə özlərini həlak edərcəsinə Allaha and içəcəklər... (Tövbə surəsi, 42)**

Onların yalanlarından bəhs edən başqa bir ayədə isə belə deyilir:

**... O, qəlbində olana da Allahı şahid göstərər. Halbuki o, düşmənlərin ən qatısıdır. (Bəqərə surəsi, 204)**

Münafiqlər tarix boyunca həmişə eyni yalanlarla ortaya çıxmışlar. Peyğəmbərimiz (s.ə.v) dövründə müdafiə üçün gedən döyüşlərdən geri qalmağa çalışan münafiqlərin əsas xarakteri, indiki zamanda da Allah yolunda icra edilən elmi, fikri mübarizədən, təbliğ fəaliyyətlərindən yenə hiyləgər bəhanələrlə qaçmaları ilə özünü göstərməkdədir. Münafiqlər mənfəət əldə edə

bilməyəcəklərini anladıqları anda möminləri dərhal yarı yolda buraxarlar. Vəfa, dostluq, sədaqət bağları olmadığı üçün möminlərin çətin vəziyyətdə qalmış olmaları, köməyə ehtiyac duymaları onları heç maraqlandırmaz. Hətta bilərəkdən müsəlmanlara zərər toxunması üçün bu tərz xainliklər edərlər.

Buna görə də, münafiqlər mübarizədən qaçmaq üçün qarşıya qoyduqları yalanlarını nə qədər məqbul zəminə oturtmağa çalışsalar da, Allah səmimiyyətsizliklərinin dəlili olaraq bu tərəflərini bir çox ayə ilə bizlərə əvvəldən bildirmişdir. Bu bəhanələrin hamısının təməl səbəbi isə iman zəifliyi və qəlbindəki xəstəlikdir.

Çünki Allaha və axirət gününə qəti iman edən bir müsəlman üçün, Allah yolunda edilən hər cür elmi fəaliyyətdə geridə qalanlardan olma ehtimalı mümkün deyil. Hətta möminlər imanının verdiyi şövq və həyəcanla hər cür çətinliyə talib olarlar. Allahdan başqa heç kimdən, heç bir təhlükədən qorxmadan yalnız Allah üçün yaşayarlar.

**De: "Şübhəsiz, mənim namazım da, ibadətim də, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür.**

**(Ənam surəsi, 162)**

## Münafiqlər, möminlərin arasında yalan xəbər yayırlar

Möminlərin arasında yalan xəbər yaymaq münafiqlərin başqa fitnəkar xüsusiyyətlərindən biridir. Münafiqlər möminlərin əleyhinə kimi görünən hər hansı bir şeyi şişirdib fəlakət dərəcəsinə çatdırır, sonra onu müsəlmanların arasında yayırlar. Bununla möminlər arasında narahatlıq və qarışıqlıq meydana gətirməyə çalışırlar. Quranda münafiqlərin bu çirkin əməllərindən belə bəhs edilir:

**Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldiyi zaman onu yayarlar. Əgər bunu Peyğəmbərə və aralarındakı ixtiyar sahiblərinə demiş olsaydılar, onların içindən onun mahiyyətini anlayan kimsələr (onun nə olduğunu) bilərdilər. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, şübhəsiz ki, az bir qisminiz istisna olmaqla, şeytana uyacaqdınız. (Nisa surəsi, 83)**

Onların yalan və iftiralarına qarşı möminlərin nə edəcəklərini Quranda Peyğəmbərimizin dövründə yaşanmış bir hadisədən bəhs edilərkən belə bildirilir:

**Həqiqətən, (Peyğəmbərin xanımına) iftira atanlar sizin içinizdən bir qrupdur. Bunu özünüz üçün pis bir şey hesab etməyin! Əksinə, o sizin üçün xeyirlidir. Onlardan hər biri qazandığı günahın cəzasını çəkəcəkdir. Onlardan günahın böyüyünü yüklənənə gəlincə, onun üçün böyük bir əzab vardır. Kaş onu (iftiranı) eşitdiyiniz zaman mömin kişi və qadınlar qəlblərində yaxşı şeylər düşünərək: "Bu, açıq-aydın bir iftiradır!" - desəydilər. (Nur surəsi, 11-12)**

Bir başqa ayədə isə müsəlmanların, etibar etdikləri qardaşları olan səmimi möminlərdən başqa birindən gələn xəbəri, məlumatı ətraflıca araşdırıb, o məlumatın doğruluğunu təsdiq etmədən diqqətə alınmaması bildirilər. Bu, səmimiyyətsiz, pis niyyətli, xain ruhlu, münafiq xarakterli insanların möminləri qəsdən səhv məlumatlandırmaları nəticəsində yarana biləcək təhlükələrə qarşı, Allahın möminlərə öyrətdiyi çox əhəmiyyətli tədbirdir:

**Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirərsə, dərhal (onun doğru olub-olmadığını) araşdırın! Yoxsa, bilmədən bəzi insanlara pislik etmiş olarsınız və etdiyiniz əmələ görə peşmançılıq çəkərsiniz. (Hucurat surəsi, 6)**

## Münafiqlər xeyirxahlıq adı ilə təxribat törədirlər

Münafiqlər hər şeydə olduğu kimi, fitnə çıxaranda belə ikiüzlü davranırlar. Pis əməllərini yaxşı niyyətlə etdiklərini iddia edirlər. Əslində, münafiqlərin məqsədləri insanları şübhəyə salmaq, onların şövqünü qırmaq, fitnə çıxarmaq və onların gücünü zəiflətməkdir. Onlardan soruşduqda isə bunu yaxşı niyyətlə etdiklərini deyirlər. Ancaq Allah Quranda münafiqlərin səmimi olmadıqlarına belə diqqət çəkir:

**Onlara: "Yer üzündə fitnə-fəsad törətməyin!" - deyildikdə onlar: "Biz yalnız islahedicilərik!" - deyərlər. Bilin ki, əsil fitnə-fəsad törədənlər onlardır. Lakin bunu dərk etmirlər.**

**(Bəqərə surəsi, 11-12)**

Bu yalanlarının xəbər verildiyi başqa ayə isə belədir:

**(Münafiqlərin arasında möminlərə) zərər vermək, haqqı inkar etmək, möminlərin arasını vurmaq və əvvəllər Allaha və Peyğəmbərinə qarşı vuruşanları hazırlamaq üçün məscid tikən və: "Biz (bununla) yalnız yaxşılıq etmək istədik!" - deyə and içənlər var. Halbuki, Allah onların həqiqətən yalançı olduqlarına şahidlik edər. (Tövbə surəsi, 107)**

# MÜNAFİQLƏRİN MÖMİNLƏRƏ QARŞI XAİN FƏALİYYƏTLƏRİ

Münafiqlər, daha əvvəl də qeyd etdiyimiz kimi, çətin anlarda fitnə-fəsad çıxarmağa çalışırlar. Lakin möminlər əleyhinə fəaliyyətləri bununla məhdudlaşmır. Münafiqlər çox vaxt möminlərdən ayrıldıqdan sonra da fitnəkarlığa davam edirlər. Quranda Allah münafiqlərin bu xüsusiyyətini **"Onlar hər dəfə fitnəyə qaytarıldıqda gözüyumulu ona qoşularlar" (Nisa surəsi, 91)** ayəsi ilə xəbər verir.

Möminlərdən ayrılandan sonra öz aralarında əlbir olmağa davam etmək münafiqlərin əsas xüsusiyyətlərindəndir. Fitnə-fəsad çıxarmaqla möminlərdən ayrılıb yenə müsəlman kimi görünmək və ikiüzlülüyə davam etmək daha da təəccüblüdür. Bunun əsas səbəbi əvvəl də vurğuladığımız kimi, onların münafiqliyi qəbul etməməsidir. Heç bir münafiq səmimi şəkildə: "Allahın rizasını qazanmağa çalışan müsəlmanlar arasında fitnə çıxardım. Buna görə də ikiüzlü saxtakaram, əslində, Allaha inanmıram", - deməz. Səmimi möminlərlə birlikdə olmasa da, özü kimi başqalarını ətrafına toplayıb qrup yaradar və müsəlman kimi görünməyə davam edər. Əslində isə ən böyük din düşmənidir.

Quranda münafiqlərin Peyğəmbərimizdən və yanındakı möminlərdən ayrıldıqdan sonra yeni məscid qurduqlarından bəhs edilir. Tarixi kitablarda bu məscidin adının "**Dirar məscidi**" olduğu bildirilir. Onların belə iş tutması diqqəti çox cəlb edir. Dindən ayrılsalar da, müsəlman görünüşlərini qorumağa davam etmişdilər. Münafiqlərin həmin məscidi ilə Peyğəmbərimizin (s.ə.v) "təqva üzərinə" qurulan məscidi Quranda belə müqayisə edilir:

**(Münafiqlərin arasında möminlərə) zərər vermək, haqqı inkar etmək, möminlərin arasını vurmaq və əvvəllər Allaha və Peyğəmbərinə qarşı vuruşanları hazırlamaq üçün məscid tikən və: "Biz (bununla) yalnız yaxşılıq etmək istədik!" - deyə and içənlər var. Halbuki, Allah onların həqiqətən yalançı olduqlarına şahidlik edər. Orada əsla namaz qılma! İlk gündən etibarən təqva üzərində qurulmuş məscidin (Quba məscidinin) içində namaz qılmağın daha doğrudur. Orada paklanmağı sevən insanlar var.**

**Allah pak olanları sevər. (Məscidin) binasını Allah qorxusu və rizası üzərində quranmı, yoxsa binasını uçulmaqda olan bir yerin kənarında qurub, (ora çökdüyü zaman) onunla birlikdə cəhənnəm oduna yuvarlananmı daha xeyirlidir?! Allah zalımlar qövmünü doğru yola yönəltməz. Onların tikdiyi bina (öldükləri zaman) qəlbləri parçalanana qədər ürəklərində bir şübhə olaraq qalacaqdır. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

**(Tövbə surəsi, 107-110)**

Ayələrdə də ifadə edildiyi kimi, münafiqlərin yeni məscid tikməkdə məqsədi, möminlərə zərər vermək və möminlərə qarşı çıxanlarla xaincə əməkdaşlıq etməkdir. Hər nə qədər bu məscidi quran münafiqlər, saxtakarlıqlarının və ikiüzlülüklərinin şeytanı gərəyi olaraq "biz yaxşılıqdan başqa bir şey istəmədik" deyə yalan danışsalar da, həqiqi məqsədləri düşmənlik etmək, Peyğəmbərimizi (s.ə.v) şəhid edə bilmək, müsəlmanlar arasında qarışıqlıq və fitnə çıxarmaqdır.

Müsəlmanlarla münafiqlərin məscidini bir-birindən ayıran ən əhəmiyyətli fərq isə, möminlərinkinin "təqva", yəni "Allah qorxusu və Allah rizası" üzərinə qurulmuş olmasıdır. Möminlərə düşmənlik məqsədi ilə qurulan münafiqlərin məscidi isə, ayədə xəbər verildiyi kimi, cəhənnəm oduna yuvarlanacadır.

## Münafiqlər möminlərdən intiqam almağa çalışırlar

Möminlərə qarşı kin və nifrət bəsləmək münafiqlərin onlardan ayrıldıqdan sonra bir yerə toplaşmalarının başqa bir səbəbidir. Əvvəlki səhifələrdə münafiqlərin arasında möminlərdə olduğu kimi, sevgi və hörmətin olmadığından, tam əksinə, ayədəki ifadə ilə desək, qəlblərinin parça-parça olduğundan bəhs etmişdik. Onların bir yerdə olmalarının səbəbi möminlərə qarşı kin bəsləmək və intiqam almaq həvəsləridir.

Münafiqlər möminlərdən intiqam almaq istəyərlər, çünki onların içində olduqları müddət boyunca, möminlərdən mənfəət əldə edə bilməzlər. Buna qarşılıq içləri yanaraq da olsa özlərini mömin kimi göstərmək məqsədi ilə onlara gözəl söz demələri lazımdır, fədakarlıq etmələri lazımdır. İslam əxlaqının yayılması onları heç maraqlandırmadığı halda, bəzən taktika olaraq da olsa məcbur olaraq İslam və Quran adına fəaliyyət etmələri lazımdır.

Həyatda heç istəməyəcəkləri şey olmasına baxmayaraq, möminlərin arasında olduqları müddətcə əslində möminlərin müvəffəqiyyətinə şahid olmaq məcburiyyətində qala bilərlər. Onlar müsəlmanlardan bir mənfəət əldə edə bilməzlər amma müsəlmanlar Allahın nəsib etdiyi ağıl və fərasətləri ilə eyni Hz. Süleymanın (ə.s) şeytanları özünə xidmət etdirməsi kimi, münafiqlərdən Allah yolunda maksimum ölçüdə istifadə edərlər.

Hətta yeri gəldiyində möminlər Allah rizası üçün onlara səhvlərini deyər, münafiqanə hərəkətlərinin səhvini Quran ayələri ilə onlara təsvir edər, etdiklərindən imtina etməzlərsə cəhənnəmlə qarşılıq tapa biləcəklərini xatırladarlar. Ancaq münafiqlər ruhunda mühafizə etdikləri dəli dərəcəsində böyüklənmə hissinə görə, möminlərin göstərmiş olduğu gözəl əxlaqı təqdir edə bilməz və onlara qarşı dəhşətli kin və düşmənlik bəsləyərlər

"Tövbə" surəsinin 74-cü ayəsində Allah **"onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir"** ifadəsi ilə münafiqlərin möminlərdən intiqam almaq istədiklərinə diqqət çəkir. Amma onların bu cəhdi boşdur. Allah hiylələrini pozmuş və onları daha da alçaltmışdır.

## Münafiqlərin hücumu iman edənlərin dəyərini yüksəldər

**ADNAN OKTAR**: Münafiq, möminlərdən ayrılsa da əlaqəni kəsməz. Buna görə də, məsələn münafiqlər Hz. Mehdi (ə.s) camaatını da, çox diqqətli izləyərlər. Peyğəmbərimizin (s.ə.v) camaatını da çox diqqətlə izləmişlər. "**Mənə nə**" deyib getməz münafiq. Baxın, "**uzaqdan xəbərlərinizi izləyərlər**" deyir Allah ayədə. Yəni ömrünün sonuna qədər izləyər münafiq. **"Və sizə bir xeyr toxunduğunda onların pislərinə gedər"** deyir, iztirab olar. Məsələn **"gənclik,**

**gümrahlıq, sağlamlıq, qüdrət, mal, mülk filan, onları çökdürər"** deyir, Allah onlara bir əzab olaraq onu yaratmışdır. Möminlərə nemət verdikcə münafiqlər çökər. **"Amma sizə bir hücum edildiyində onların xoşuna gələr"** deyir. Halbuki axmaqdır, anlamadığına görə belə düşünürlər.

Möminlərə hücum edildiyində mənəvi mövqeyi yüksəlir onsuz da müsəlmanın, dəyəri yüksəlir. Çünki müsəlman zatən axirət üçün burada, Allah rizası üçün burada. Hücum edildiyində onsuz da müsəlman yüksələr. Hücum edilmədiyində, müsəlmanın mənəvi mövqeyi yüksəlmir. Yəni yüksələr ancaq müəyyən bir dərəcədə qalar. Hücumun yüksəltmə gücü çox böyükdür. Onun üçün məsələn Hz. Mehdi (ə.s) camaatına da tez-tez hücumlar olur. (Adnan Oktar, 3 avqust 2010, Çay TV)

## Münafiqlər möminlərə qarşı inkarçılarla əlbir olurlar

Münafiqlərin möminlərdə zərər vermək üçün əl atdıqları üsullardan biri də inkarçılarla əlbir olmaqdır. Quranda münafiqlərin inkarçılara güvənib onlarla dost olduqlarına belə diqqət çəkilir:

**Münafiqlərə, onlar üçün şiddətli əzab olacağını müjdələ! Möminləri qoyub kafirləri dost tutanlar, izzəti (güc və şərəfi) onların yanındamı axtarırlar?! Şübhəsiz ki, bütün izzət Allaha məxsusdur! (Nisa surəsi, 138-139)**

Peyğəmbərimizin dövründə də münafiqlər bu xüsusiyyətləri göstərmişdilər. Bununla yanaşı, möminlərə hücum edən inkarçılara dəstək vermiş, onlara möminlər haqqında məlumat vermiş və möminlərə hücum etmək üçün onları təşviq etmişdilər. Bu barədə Quranda belə xəbər verilir:

**Münafiqlərin kitab əhlindən inkar edən qardaşlarına: "Əgər siz yurdunuzdan çıxarılsanız, əlbəttə, biz də sizinlə birlikdə**

**çıxacağıq. Sizin əleyhinizdə heç kimə itaət etmərik! Əgər onlar sizinlə vuruşarlarsa, mütləq sizə yardım edəcəyik!" - dediklərini görmədinmi? Allah onların yalançı olduqlarına şahidlik edir. Əgər onlar yurdlarından çıxarılsalar, (münafiqlər) onlarla birlikdə çıxmazlar. Əgər (möminlər) onlarla vuruşsalar, onlara yardım etməzlər. Yardım etsələr belə, arxalarını çevirib qaçarlar. Sonra onlara da heç bir yardım olunmaz. (Həşr surəsi, 11-12)**

Münafiqlərin inkarçılara möminlər haqqında məlumat ötürmələri başqa bir ayədə belə deyilir:

**Ey Peyğəmbər! Qəlbləri inanmadığı halda ağızları ilə: "İnandıq", - deyənlərdən küfrdə bir-birləri ilə yarışanlar səni kədərləndirməsin! Yəhudilərdən də elələri var ki, yalan sözlərə və sənin yanına gəlməyən başqa kimsələrə qulaq asırlar. Onlar (Tövratdakı) sözlərin yerini sonradan dəyişdirirlər. Onlar: "Əgər bu sizə verilsə, onu alın. Əgər o sizə verilməsə, (ondan) uzaq durun!" - deyirlər. Allah bir kimsənin fitnəyə (zəlalətə) düşməsini istəyərsə, sən Allaha qarşı onun üçün heç bir şey edə bilməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir. Onlar üçün dünyada rüsvayçılıq, axirətdə isə böyük bir əzab vardır. (Maidə surəsi, 41)**

Münafiqlər, beləliklə, inkarçıların möminlərə qalib gələcəyini və bu minvalla intiqamlarını da alacaqlarını zənn edirlər. Halbuki çox yanılırlar. Çünki ayələrdə bildirildiyi kimi, bütün güc və qüdrət Allahındır və Allah möminlərin dəstəkçisidir. Münafiqlərin və inkarçıların möminlərə qarşı təşkil etdikləri hücum və hiylələr Allahın yardımı ilə möminlərə zərər verə bilməz.

## Münafiqlər möminləri ləkələməyə çalışırlar

Peyğəmbərimizin dövründə möminlərə iftira və böhtan atmaq münafiqlərin əl atdığı əməllərdən biri idi. Münafiqlər möminləri ləkələdikcə özlərini təmizə çıxaracağını sanmış, bu yolla onlardan ayrılıb düşmənçilik etməyi bir növ labüd hala gətirməyə çalışmışdılar. Elə zənn etmişdilər ki, möminlər haqqında yalanlar uydurmaqla onların etibarını azaldacaqlar.

Quranda münafiqlərin bu əxlaqsız xüsusiyyətindən də bəhs edilir. Peyğəmbərimizin (s.ə.v) zövcələrinə iftira atdıqları **"dilləri ilə sizə pislik edərlər" (Mümtəhinə surəsi, 2)** ayəsi ilə xəbər verilərək onların bu yönünə də diqqət çəkilir.

Bundan başqa, Quranda münafiqlərin möminlərə istehza etməyə çalışdıqları, ancaq bu etdikləri pisliyin əsas özlərinə isabət edəcəyi də xəbər verilir:

**Könüllü surətdə sədəqə verən möminləri ayıblayan və çətinliklə əldə etdiklərini sədəqə verənləri məsxərəyə qoyanlara gəldikdə, Allah da onları məsxərəyə qoymuşdur. Onlar üçün acı bir əzab vardır. (Tövbə surəsi, 79)**

**Səndən əvvəlki peyğəmbərlər də məsxərəyə qoyulmuşdular. Buna görə də istehza etdikləri (əzab) məsxərəyə qoyanları bürümüşdü. (Ənam surəsi, 10)**

## Münafiqlər möminləri öz cərgələrinə qatmağa çalışırlar

Münafiqlər möminlərə qarşı atdıqları iftira, inkarçılarla əməkdaşlıq kimi fəaliyyətlərinin yanında, bir də mömin birliyi içindən ağlı zəif, qəlbində xəstəlik

olan ya da ürəyi İslama daha yeni isidilən insanları da hiyləgərcə üsullarla özlərinə tərəfdaş əldə etməyə çalışarlar.

Xüsusilə də vəsvəsəyə asanlıqla düşəcəyini düşündükləri insanlara yanaşmaya, onları fitnəyə salmağa səy göstərərlər. Mömin birliyinin küfrə görə çətinliklərlə, iftiralarla, təzyiqlə qarşılaşdığı imtahan dövründə, münafiqlər bu hiyləgər fəaliyyətlərini daha da sürətləndirmişlər. Allah, münafiqlərin şeytani fəaliyyətlərini Quranda, **"Şübhəsiz ki, Allah sizdən (döyüşə) mane olanları da, qardaşlarına: "Bizim yanımıza gəlin!" – deyənləri də tanıyır. Onların yalnız az bir hissəsi döyüşə gələr." (Əhzab surəsi, 18)** ayəsi ilə xəbər verməkdədir.

## Münafiqlər, müsəlmanların Allaha daha da yaxınlaşmasına vasilə olarlar

**ADNAN OKTAR:** Münafiq və kafirlər müsəlmanların kamilləşməsi üçün cəhənnəmdən xüsusi olaraq gətirilirlər. Müsəlmanlar onlardan ibrət götürür, həmin insanlar müsəlmanların Allaha yaxınlaşmasında vasitəçilik edirlər. Allah onların vasitəsilə müsəlmanları Özünə yaxınlaşdırır. Biz kafirlərə və münafiqlərə baxdıqca imanın və ağlın dəyərini daha çox anlayırıq, Allaha daha çox yaxınlaşırıq. Onlara qarşı fikri mübarizə apardıqca savab qazanırıq, beləliklə də, Allahın rizasını qazanırıq.

Bu sistem Allaha daha çox sevgi bəsləməyimizə səbəb olur. Məsələn, Peyğəmbərimizin dövründə münafiqlər Peyğəmbərimizin və səhabələrin daha diqqətli və ehtiyatlı olmalarına təşviq etmişdir. Küfürdə də, münafiqlərdə də bu təşviqedici xüsusiyyət var, ancaq münafiqlərdə bu daha qabarıqdır. Münafiqlərin əxlaqsızlığını görən möminlər daha çox şövqlə İslama xidmət edirlər və Qurana, İslama, Allaha sevgiləri daha çox artır. (Adnan Oktarın "Kaçkar" TV müsahibəsi, 12 mart 2009)

**ADNAN OKTAR**: Münafiqlər Peyğəmbərimizə (s.ə.v) böyük əziyyətlər etdilər. Axırzamanda da Mehdinin (ə.s) qarşısında dayanacaqlar. Xüsusi yaradılarlar, məqamını yüksəltmək üçün. Mehdinin (ə.s) məqamını yüksəltmək

üçün, Rəsulullahın (s.ə.v) məqamını yüksəltmək üçündür. Münafiq olmasa insanın məqamı çox yüksəlməz. Münafiq müsəlmanı yüksəldən, Allaha yaxınlaşdıran bir gücdür. (Adnan Oktar, "A9 TV" müsahibəsi, 10 fevral 2010)

**ADNAN OKTAR**: Münafiqlər hər dövrdə olar; bir mikrobdur, cəmiyyət mikrobudur bunlar. Alçaq məxluqlardır. Rəsulullah (s.ə.v) zamanında da olmuşdur, Hz. Musa (ə.s) dövründə də olmuşdur, daha əvvəlki dövrlərdə də olmuşdur. Lakin bu, müsəlmanların dəyərini artırar. Bu möminin bir qüruru olacaq, gözəlliyi olacaq. Yəni kömürlə almazın müqayisə edilməsi kimi olacaq. Bu alçaq məxluqların əxlaqsızlığı, o mübarək insanların da yüksək əxlaqı, gözəl rəftarı, fədakarlığı, igidliyi, səbri müqayisə ediləcək. Beləliklə bu insanları daha çox sevəcəyik. Bu tərəfdən də bir xeyir vardır. (Adnan Oktarın "Kral Karadeniz TV" müsahibəsi, 7 aprel 2009)

# ALLAH MÜNAFİQLƏRİ MÜTLƏQ ORTAYA ÇIXARIB, ONLARA ƏZAB VERƏCƏKDİR

Quranda münafiqlərdən bəhs edən bütün ayələr üstün güc sahibi olan Allahın möminlərin arasındakı münafiqləri mütləq ortaya çıxaracağını göstərir. Münafiqlər nə qədər oyun oynayıb həqiqi üzlərini gizlətsələr də, Allahın dilədiyi zamanda möminlər tərəfindən mütləq tanınacaqlar.

Çünki bu onların taleyində var. Allah onları bunun üçün yaratmış və imtahan məqsədilə möminlərin arasına qoymuşdur. Quranda münafiqlərin bütün xüsusiyyətləri və fəaliyyətləri xəbər verilmişdir. Münafiq nə etsə də, çirkin hərəkətlərinə davam etməlidir. Çünki taleyində yazılanlardan qaça bilməz.

Münafiqlərin ortaya çıxıb anlaşılması üçün, çətin anlarda özlərini büruzə etməyə də ehtiyac yoxdur. Allah diləyərsə, möminlərə onları tanıyıb ikiüzlülüklərini analiz etmək bacarığı verər. Belə bacarığı olan möminlər bəzən davranışını dəyişdirər deyə münafiq xarakterli şəxsə qarşı xoş davrana bilərlər. Bu minvalla münafiq elə düşünür ki, özünü gizlədə bilir. Lakin yanılır.

Allah münafiqlərin gizli qalmayacağını Quranda belə xəbər verir:

**Yoxsa qəlbində xəstəlik olanlar (münafiqlər) Allahın onların kinlərini üzə çıxartmayacağınımı zənn etdilər? Əgər istəsəydik, onları, əlbəttə, sənə göstərərdik. Beləcə, sən də onları üzlərindən tanıyardın. Həqiqətən, sən onları danışıq tərzlərindən tanıyarsan. Allah sizin əməllərinizi bilir. Həqiqətən, içinizdən cihad edənləri və səbir edənləri ortaya çıxarana qədər sizi sınayacaq və haqqınızdakı xəbərləri yoxlayacağıq.**

**(Məhəmməd surəsi, 29-31)**

Münafiqlər, Quranla verilən hər cür nəsihətə baxmayaraq ikiüzlülük, əxlaqsızlıq, saxtakarlıq, xainlik, hiyləgərlik və yalançılıq mövzusundakı israrları nəticəsində, həm dünyada həm də axirətdə dəhşətli əzabla qarşılaşacaqlar.

## Münafiqlər dünyada da böyük azab çəkirlər

Münafiqlər çıxardıqları fitnə-fəsadlara görə böyük əzaba layiqdirlər. Allahın təqdiri ilə bu əzab hələ dünyada ikən başlayır və ölümdən sonra cəhənnəmdə sonsuza qədər davam edəcəkdir.

Hər şeydən əvvəl onu deyə bilərik ki, münafiqlər mənəvi əzab çəkirlər. Davamlı olaraq narahatlıq və qorxu içində yaşayırlar. Möminlərə qarşı etdiklərinin ikiüzlülük olduğunu, əslində, özləri də bilirlər. Buna görə də vicdani olaraq müntəzəm narahatlıq hissi keçirirlər. Bu narahatlıq ömrünün sonuna qədər davam edir.

Bundan başqa, fitnə çıxardıqdan sonra da, əvvəl də davamlı qorxurlar. İkiüzlülükləri ortaya çıxarsa, möminlərin onları tanımasından qorxurlar. Onlardan ayrılandan sonra isə əməllərinə qarşılıq olaraq Allah onları qorxu içində yaşadır. Quran əxlaqını yaşayan insanların sayının çoxalması münafiqlərin qorxusunu daha da artırır.

Çünki kiçik mənfəətlərindən dolayı möminlərdən ayrıldıqlarına görə Allaha iman gətirənlərin sayının çoxalması onlara böyük peşmançılıq verir. Buna görə də bəzi münafiqlər İslam əxlaqının yayıldığını gördükdə möminlər arasına girməyə və "biz də sizinlə idik" kimi sözlərlə onların müvəffəqiyyətindən özlərinə pay çıxarmağa çalışırlar. Quranda Peyğəmbərimizin dövründə reallaşan hadisələrdən və o dövrdəki münafiqlərin davranışlarından belə bəhs olunur:

**Münafiqlərə, onlar üçün şiddətli əzab olacağını müjdələ! Möminləri qoyub kafirləri dost tutanlar, izzəti (güc və şərəfi) onların yanındamı axtarırlar?! Şübhəsiz ki, bütün izzət Allaha məxsusdur! (Nisa surəsi, 138-139)**

**Allahdan sizə bir qələbə nəsib olarsa, sizi kənardan izləyənlər (münafiqlər) belə deyərlər: "Biz də sizinlə birlikdə deyildikmi?" Əgər kafirlərə (zəfər) nəsib olarsa, (bu dəfə onlara:) "Biz (müharibədə) üstünlüyünüzü təmin edib sizi möminlərdən qorumadıqmı?" - deyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcək və kafirlərə, möminlərin əleyhinə bir yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

Peyğəmbərimizin dövründəki münafiqlərin Peyğəmbərimizin qələbə çaldığı döyüşlərdə qənimətləri ələ keçirmək üçün səmimiyyətsizcə möminlərə yaxınlaşmağa çalışdıqları belə xəbər verilmişdir:

**Qənimətləri almaq üçün getdiyiniz zaman (səfərə getməyib) arxada qalanlar: "İcazə verin biz də sizin arxanızca gələk!" - deyəcəklər. Onlar Allahın sözünü dəyişdirmək istəyirlər. De: "Siz əsla bizim arxamızca gəlməyəcəksiniz! Allah daha əvvəl sizin üçün belə buyurmuşdur". Onlar: "Xeyr! Siz bizə paxıllıq edirsiniz", - deyəcəklər. Əksinə, onlar çox az anlayan kimsələrdir. (Fəth surəsi, 15)**

Göründüyü kimi, münafiqlər möminlərin üstün gəldiyinə şahid olduqda yenidən onların yanına gəlmək istəmişdilər. Buna baxmayaraq, onlardan heç bir qarşılıq görməmişdilər.

## Münafiqlər axirətdə cəhənnəmin ən aşağı təbəqəsinə atılacaqlar

Münafiqlər fitnəkar əməllərinə görə əsas cəzalarını axirətdə alacaqlar. Axirətdə onlara ayrılan yer cəhənnəmin ən aşağı yeri, yəni əzabın ən çox olduğu yerdir. Quranda bu həqiqətdən belə bəhs olunur:

**Şübhəsiz, münafiqlər cəhənnəmin ən alt təbəqəsindədirlər. Artıq onlar üçün heç bir yardımçı tapa bilməzsən. (Nisa surəsi, 145)**

Münafiqlərin gedəcəyi cəhənnəmin ən aşağı təbəqəsi Quranda belə təsvir olunur:

**Onlar bir-birinə göstəriləcəklər. Günahkar o günün əzabından xilas olmaq üçün fəda etmək istəyəcək: oğullarını, zövcəsini, qardaşını, onu qoruyub sığınacaq verən əşirətini və yer üzündəkilərin hamısını – təki özünü (əzabdan) xilas etsin. Əsla! Həqiqətən, o (cəhənnəm) alovlu bir oddur. (O alov) başın dərisini sıyırıb çıxardar. O, haqqa arxa çevirəni və ondan üz döndərəni çağırar. (Məaric surəsi, 11-17)**

**Onlar orada inildəyəcək və heç bir şey eşitməyəcəklər.**

**(Ənbiya surəsi, 100)**

**O gün günahkarların zəncirləndiyini görərsən. Onların köynəkləri qətrandandır. Üzlərini də alov bürüyər. (İbrahim surəsi, 49-50)**

**Zəqqum ağacı! O, günahkarların yeməyidir. O, əridilmiş yağ kimi qarınlarda qaynayar. Qaynayan su kimi! (Allah cəhənnəm mələklərinə belə buyuracaq:) "Onu tutun və cəhənnəmin**

**ortasına sürükləyin! Sonra başından qaynar su tökərək ona əzab verin!" (Duxan surəsi, 43-48)**

Münafiqlərin çəkəcəyi bu əzab ancaq etdiklərinin qarşılığıdır. Çünki onlar yalnız Allaha ibadət edən möminlərə düşmənçilik etmişdilər. Yalan və hiylə ilə onları aldadıb yollarından döndərməyə çalışmışdılar. Möminlərə qarşı inkarçılarla əlbir olmuş, müxtəlif iftiralar yaxmaqla yanaşı, onlara qarşı təşkil edilən bütün hiylələrə dəstək vermişdilər. Möminlərin həbs olunmaları, yurdlarından sürgün edilmələri, şəhid edilmələri üçün küfrə hər cür kəşfiyyatı təmin edərlər. Heç şübhəsiz, Allahın sevdiyi saleh qullarına bu pisliklərin edilməsi isə Allahı çox qəzəbləndirəcək rəftarlardır.

**Şübhəsiz ki, Allah insanlara əsla zülm etməz, ancaq insanlar özləri özlərinə zülm edərlər. (Yunis surəsi, 44)**

## Münafiqlər cəhənnəmin ən dərin təbəqəsinə qoyulacaq

**ADNAN OKTAR:** ...Ayədə bildirilir ki, **"onların yalan dediklərini Allah bilir" (Tövbə surəsi, 42).** Özləri də bunu bilsələr də, inkar edirlər, amma axirətdə dilləri, gözləri, dəriləri danışmağa başlayacaq. O zaman əxlaqsız hərəkətlərini müdafiə etmələrinin mənasız olduğunu görəcəklər. Bunu qəlbən yaxşı bilirlər, lakin bu, axirətdə üzə çıxacaq və bunu dəqiq anlayacaqlar. Elə düşünürlər, haşa, Allahı aldadırlar; bunun mümkün olmadığını axirətdə başa düşəcəklər.

Məsələn, ən azğın münafiqlər Peyğəmbərimizin (s.ə.v) dövründə çıxmışdır. Sonrakı münafiqlər başqa cür olur, çünki orada Peyğəmbəri birbaşa görüb müşahidə edirlər. Gözəl əxlaqını və qeyri-adi insan olduğunu gördüklərinə görə lap azğın olurlar. Buna görə də Allah onların cəhənnəmin ən alt təbəqəsinə qoyulacağını bildirir. Ən şiddətli əzab onlara veriləcək. Əlbəttə, bu möminlərin qəlbinə rahatlıq verir. Bir az batini yöndən yanaşsaq, yəni hadisələrə Allahın ledün elminin təzahürü kimi baxsaq, münafiqlərin taledə

xüsusi yaradılmış varlıqlar olduğu anlaşılar. (Adnan Oktarın "Kaçkar TV" müsahibəsi, 12 mart 2009)

**..."Sən bütün nöqsanlardan uzaqsan! Biz Sənin bizə öyrətdiklərindən başqa heç bir şey bilmirik. Şübhəsiz ki, Sən hər şeyi bilənsən, hikmət sahibisən!" (Bəqərə surəsi, 32)**

# ƏLAVƏ HİSSƏ:
# TƏKAMÜL NƏZƏRİYYƏSİNİN SÜQUTU

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi, həmçinin təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, qərəzli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər əsərlərimizdə də bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq bu mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə əsaslı şəkildə irəli sürüldü. Nəzəriyyəni elm

dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı. Özünün də qəbul etdiyi kimi, sadəcə fikir irəli sürmək idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşılaşdığı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir təkzib etdi.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

1) **Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.**
2) **Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.**
3) **Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.**

Bu bölmədə bu üç başlığı əsas prinsipləri ilə təhlil edəcəyik.

## Keçilmaz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya

bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbii qanunlar çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "təsadüfi törəmə" (spontaneous generation) adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərinə əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görünməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə basdırılmışdır". (*Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh.2*)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi məsələsi təkamül nəzəriyyəsini tamamilə əhatə edən ən qaranlıq məqamdır". (*Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196*)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin Yer kürəsi şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (*"New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, 63-cü cild, oktyabr 1982, səh. 1328-1330*)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada (Jeffrey Bada) təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (*Jeffrey Bada, Earth, fevral 1998, səh. 40*)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların belə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələri birləşdirərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin ən əsas quruluş vahidi olan zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət orta ölçülü zülal üçün $10^{950}$ 1-dir. Ancaq riyaziyyatda 1050-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən “qeyri-mümkün” hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik informasiyanı daşıyan DNT molekulu böyük informasiya bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi informasiya kağıza köçürülsə, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr. Burada çox maraqlı dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş zülalların (fermentlərin) köməyi ilə ikiləşir. Ancaq bu fermentlərin sintezi də ancaq DNT-dəki informasiya əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə ikiləşmənin (replikasiya) baş verməsi üçün hər ikisi eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə əmələ gəlməsi ssenarisini çıxılmaz vəziyyətdə qoyur. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orgel (Leslie Orgel) “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin əsla mümkün olmadığı nəticəsinə gəlir”. (*Leslie E.*

*Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78*)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini təkzib edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü hər iki anlayışının, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seçmə mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi: təbii seçmə yolu ilə..."

Təbii seçmə təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalması fikrinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq.

Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz. Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil.

Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189*)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184*)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə "neodarvinizmi" ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozuntuları əlavə etdi.

Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni

çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan (B. G. Ranganathan) bunu belə açıqlayır:

*"Mutasiyalar kiçik, təsadufi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xususiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yuksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadufi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadufi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha da yaxşılaşdırmır, onu məhv edir. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, təkbaşına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişdirlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar. Məsələn,

keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Həqiqətən də, bu cür canlılar keçmişdə yaşayıblarsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

*"Əgər nəzəriyyəm doğrudursa, novləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid novləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyiblərsə,* ***nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?*** *Geologiya yaxşı dərəcələndirilmiş bir prosos üzə çıxarmır və bəlkə də, bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq."( Əlavə haşiyə: Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir.

Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar, təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer (Derek V. Ager) təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

*"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə bu, canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir.

Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

*"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983, səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

# İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- **Avstralopiteklər**
- **Homo habilis**
- **Homo erektus**
- **Homo sapiens**

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən avstralopitek ("australopithecus") adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan olan iki məşhur anatomun avstralopitek nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389*)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo ardıcıllığındakı canlılar avstralopiteklərdən daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (*J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992*)

Təkamülçülər “avstralopitek > homo habilis > homo erektus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri avstralopitek, homo habilis və homo erektusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (*Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272*)

Habelə, homo erektus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neanderthalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşdurlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli nümayiş etdirmirlər.”(*S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30*)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə avstralopitek fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman, təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha

sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fovqundə olan qavramaya və ya insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, (öz nəzəriyyəsinə) sadiq birisi üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, (təkamülün) coşqun tərəfdarın bəzən müxtəlif ziddiyyətli şeylərə eyni anda inanması belə mümkündür. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19*)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı açıq misalla izah edək.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Bu ağlasığmaz iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni, sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz.

İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı altında nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər.

Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Yuxarıdakı misalda göstərildiyi kimi, təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünsək, bu həqiqət aşkar görünür.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir. Gözlə bağlı mövzuya keçməmişdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nahiyəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyinə heç bir işıq keçmir. Yəni beyinin içi

qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik bu o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir.

Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə ikiölçülü görüntü göstərir, lakin siz üçölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üçölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üçölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üçölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu

titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq ən yüksək texnologiya ilə bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa, təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmamışdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur.

İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi, cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gəlməmisiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əvəzedilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl

təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

*"Bizim materializmə inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna gorə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdənkənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar.

Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gozlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", – deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətamizi vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir.

Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa, insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub duzəltdikləri bütün şeyləri**

**udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elm adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xususilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar, təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi təsvir ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda (batilin) yox olub getdiyini görərsiniz. (Allaha) aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

**Münafiq kişilər və münafiq qadınlar bir-birlərinə bənzəyirlər. Onlar pis işlər görməyi əmr edər, yaxşı işləri qadağan edər və xəsislik edərlər. Onlar Allahı unutdular, Allah da onları unutdu. Həqiqətən, münafiqlər əsil fasiqlərdir. Allah münafiq kişilərə də, münafiq qadınlara da, inkar edənlərə də əbədi qalacaqları cəhənnəm odunu vəd etmişdir. O, onlara yetər. Allah onlara lənət etmişdir. Onlar üçün davamlı bir əzab vardır.**

**(Tövbə surəsi, 67-68)**

**Həqiqətən, münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki O (Allah) onları aldadar (aldatmalarını cəzalandırar). Onlar namaza durduqları zaman tənbəlliklə qalxar, özlərini insanlara göstərər və Allahı çox az zikr edərlər. Onlar bunların (iman ilə küfr) arasında tərəddüd edib, nə onlara (möminlərə), nə də bunlara (inkar edənlərə) bağlanarlar. Allahın azdırdığı kimsə üçün heç bir (çıxış) yolu tapa bilməzsən. (Nisa surəsi, 142-143)**

**Çünki onlar Allahı qəzəbləndirən şeylərə uydular və Onun razı qaldığı şeyləri bəyənmədilər. Buna görə də Allah onların əməllərini puç etdi. Yoxsa qəlbində xəstəlik olanlar (münafiqlər) Allahın onların kinlərini üzə çıxartmayacağınımı zənn etdilər? Əgər istəsəydik, onları, əlbəttə, sənə göstərərdik. Beləcə, sən də onları üzlərindən tanıyardın. Həqiqətən, sən onları danışıq tərzlərindən tanıyarsan. Allah sizin əməllərinizi bilir. (Məhəmməd surəsi, 28-30)**

**MÜƏLLİF HAQQINDA**: Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var. Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya

səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.